

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Yer kürəsini xilas etməyin yeganə şansı Bakıda keçirilən COP29-dur"**



14


SƏS
№ 141 (7066)
8 avqust 2024-cü il.
Qiymәti 60 qәpik


# BÖYÜK QAYIDIŞ: əzəli torpaqlarımızı yenidən dirçəldirik!


2

**İlham Əliyev: "Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq"**

# Ermənistanda keçirilən hərbi təlimlərin PƏRDƏARXASI


3

## Ünvanlı sosial yardım kimlərə təyin olunur?


9

## Paytaxtda müəllim işləmək üçün...


11

## Ermənilər "Zəngəzur dəhlizi"nin açılmasından niyə qorxurlar?



13

## Cəbhəçilər Əli Kərimliyə etiraz edir


14

## Peşə təhsilli mütəxəssis, yoxsa diplomlu işsiz?


15

# BÖYÜK QAYIDIŞ: əzəli torpaqlarımızı yenidən dirçəldirik!

## İlham Əliyev: "Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq"

44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad edərək tariximizə qələbə yazdı. Tarixi ədalət bərpa olundu və bu gün Azərbaycan torpaqlarında üçrəngli bayrağımız dalğalanır. Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi təcavüzkar ermənilləri torpaqlarımızdan təmizlədi. Bütün Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və xalq-iqtidar birliyi bu qələbənin qazanılmasında əsas amillərdəndir. Dövlətimiz tərəfindən bu illər ərizində keçmiş məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması sahəsində kompleks tədbirlər davamlı olaraq həyata keçirilsə də doğma el-obasından didərgin düşən insanlarımızı torpaq həsrəti bir an da olsun belə tərk etmədi. Məcburi köçkün düşmüş soydaşlarımızda tezliklə Azərbaycan Prezidenti, Ali Baş Komandanın rəhbərliyi ilə öz doğma yurd-yuvalarına qayıdacaqlarına hər zaman böyük inam var idi. Həmin gün yetişdi. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Qarabağda münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.



### İsmayıl Berdiyevin doğmalarına və yaxınlarına

Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Əliyeviç Berdiyevin vəfatı ilə bağlı kədərli xəbəri dərin hüznlə qarşıladım.

Hacı İsmayıl Azərbaycanın böyük dostu idi. O, Azərbaycan ilə Rusiya arasında dostluq və mehriban qonşuluq münasibətlərinin inkişafına sanballı töhfə verib. Azərbaycan və Rusiya xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi sahəsində çoxillik məhsuldar fəaliyyətinə görə o, Azərbaycan Respublikasının "Dostluq" ordeni ilə təltif edilib.

Hacı İsmayılın dini dözümlülük və tolerantlıq, dinlərarası və sivilizasiyalararası dialoqun dərinləşdirilməsinin inkişafı istiqamətində geniş dini fəaliyyəti ona təkcə öz ölkəsində deyil, onun hüdudlarından kənarda da dərin hörmət qazandırıb.

Hacı İsmayıl ilə görüşləri və söhbətləri, xüsusən bu ilin mayında Bakıdakı sonuncu görüşü həmişə böyük səmimiyyətlə xatırlayıram. İsmayıl Əliyeviçin nurlu xatirəsi qəlblərimizdə daim yaşayacaq.

Sizə səmimi-qəlbdən başsağlığı verir və bu ağır itki ilə əlaqədar ağrı-acınızı bölüşür, sizinlə birlikdə kədərlənirəm.

*Allah rəhmət eləsin!*

***İlham Əliyev***
***Azərbaycan Respublikasının***
***Prezidenti***







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada birinci yaşayış kompleksinin açılışında şəhərə köçmüş ilk sakinlərlə görüşü zamanı çıxışında bildirdiyi kimi, "44 günlük Vətən müharibəsi şanlı tariximizdir və Azərbaycan xalqı bundan sonra əbədi bu Zəfərlə fəxr edəcək. 44 gün ərzində biz hər gün irəli gedirdik. Ermənistan ordusundan fərqli olaraq bir nəfər də olsun hərbçimiz döyüş meydanını tərk etməmişdir. Onların özlərinin etiraflarına görə 12 minə yaxın fərarisi olmuşdur. Bizim əsgər və zabitlərimiz hər gün irəli gedirdilər və müharibənin birinci günündə əldə olunmuş qələbə - bir neçə kəndin azad edilməsi sonuncu günə qədər davam etdi və 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi düşmənin belini qırdı. Düşmən artıq anlamışdır ki, daha müqavimət göstərmək iqtidarında deyil və ondan sonra kapitulyasiya aktına imza atmışdır, faktiki olaraq təslim olmuşdur. Biz də o vaxt müharibəni dayandırdıq. "

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun Qələbəsi və işğaldan azad olunan rayonlarda Azərbaycan bayrağının qaldırması bizlərə fəxarət hissini yaşatdı. 30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları olan Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. Məcburi köçkünə dönmüş soydaşlarımızın üzərindən bu status götürüldü. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayan Ermənistan öz işğalçı siyasətini davam etdirsə də Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi nəticəsində Azərbaycan Vətən müharibəsində döyüş meydanında öz sözünü demiş oldu.

Vətən müharibəsindən ötən üç ildən artıq bir müddətdə işğaldan azad olunmuş ərazilərdə görülən işlər bunun təzahürüdür. Həmin ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması istiqamətində kifayət qədər layihələr həyata keçirilib. Eləcə də nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülüb. Qısa bir zamanda Böyük Qayıdışın karvanları Zəngilana, Füzuliyə, Laçına yol açıb. Bu Azərbaycanın gücünün göstəricisidir. Cənab Prezidentin bildirdiyi kimi, "Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq - ən müasir, ən rahat, ən gözəl.

Bir daha demək istəyirəm, biz azad edilmiş bütün torpaqlarda genişmiqyaslı proqramları icra edirik. Bu gün artıq Şuşa altıncı yaşayış yeridir ki, keçmiş köçkünlər buraya qayıdır. Bu gün, eyni zamanda, Laçının Sus kəndinə də keçmiş köçkünlərin qayıdışı nəzərdə tutulur və ilin sonuna qədər ən azı 20 yaşayış məntəqəsində artıq həyat bərpa ediləcək".

Ağdam da işğaldan azad olunaraq yeni tarixi dövrünə qədəm qoydu. "Ağdam şəhərini və Ağdam rayonunun işğal altında olmuş torpaqlarını biz bir güllə atmadan azad etdik. Düşməni döyüş meydanında məğlub edərək məcbur etdik ki, Ağdam rayonundan çəkilsin" - deyə Azərbaycan Prezidenti çıxışlarının birində bildirmişdir. Bu gün Ağdam azaddır. Qədim insanların yaşayış məskənlərindən olan Ağdam Qarabağ hadisələri başlayandan burada cərəyan edən hadisələrin mərkəzi olub. 1993-cü ilin iyul ayının 23-də Ağdamın işğalı tarixini artıq 20 noyabr 2020-ci ili qələbə tarixi əvəzlədi. Dövlətimizin başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı. İyirmi yeddi ildən sonra işğaldan azad olunan Ağdamda dövlət bayrağımız dalğalanır. Bundan qürurlu, şərəfli nə ola bilər?! Qarabağ uğrunda gedən döyüşlərdə 6.000-dən çox ağdamlı şəhid oldu. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı və 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi.

Biz artıq Ağdamda həyata keçirilən abadlıq-quruculuq işlərindən fəxarətlə danışırıq. Bu məkanların infrastrukturu yenidən qurulur, müasirləşir, yeni yollar çəkilir. Ermənistan silahlı qüvvələrinin daşı-daş üstə qoymadığı Ağdam şəhəri Azərbaycan dövləti tərəfindən yenidən salınır. Müasir şəhərsalma həlləri əsas götürülməklə yeni şəhər inşa olunur. Baş Plana əsasən, Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır. Bu məqsədlə "Agdam City Hotel" və "Hilton Garden Inn" layihələri icra edilir. Şəhərdə İşğal və Zəfər muzeyləri kompleksi də yaradılır. Kompleks İşğal muzeyindən başlayacaq və Zəfər muzeyi ilə başa çatacaq. Onların arasında isə Xatirə bağı yerləşəcək. Şəhərin mərkəzi hissəsində 960 yerlik ümumtəhsil məktəbi də tikiləcək. Muğam Mərkəzi isə birmərtəbəli və ikimərtəbəli bloklardan ibarət olacaq.

Burada görülən işlər tezliklə əzəli sakinlərini qoynuna alacaqdır. İşğaldan azad olunan ərazilərdə tarixi-mədəni və dini abidələrin bərpası layihələri çərçivəsində Ağdam Cümə məscidindəki işlər yekunlaşıb və məscid əvvəlki görkəminə qaytarılıb. Torpaqlarımız işğaldan azad olunduqdan sonra 2022-ci ilin martından Ağdam Cümə məscidinin bərpasına başlanılmışdı. Ağdam Konfrans Mərkəzi Ağdam rayonu işğaldan azad edildikdən sonra inşa olunub. Ağdam Konfrans Mərkəzində müasir tələblərə uyğun tədbirlərin - konfransların, seminarların, forumların, simpoziumların, işgüzar görüşlərin, konsertlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Mərkəz artıq beynəlxalq və yerli tədbirlərə ev sahibliyi edir.

Onu da bildirək ki, Xıdırlı kənd tam orta məktəbinin inşası üçün 2,7 hektar ərazi ayrılıb. İki yerüstü və bir yeraltı mərtəbədən ibarət olacaq binada 22 kabinet yaradılacaq. Məktəbdə, həmçinin idman və akt zalları, 2 əmək kabineti, kitabxana, fizika, kimya və biologiya laboratoriyaları, 2 informatika kabineti, ilkin hərbi hazırlıq kabineti istifadəyə veriləcək. Məktəbin ərazisində idman meydançası, köşk, kiçik skamyalar, qazanxana yaradılacaq. Tikinti işlərinin bu ilin sonunadək başa çatdırılması planlaşdırılır.

Bəli, bu gün işğaldan azad olunan doğma yurd yerlərimiz yenidən qurulur, dirçəlir və inkişaf edir. Biz doğma yurdumuzu yenidən dirçəldirik!.

***Zümrüd BAYRAMOVA***

# Ermənistanda keçirilən hərbi təlimlərin PƏRDƏARXASI

***Vaxtaşırı olaraq Ermənistanda hərbi təlimlərin keçirilməsi diqqəti cəlb etməyə bilməz. Çünki işğalçı ölkənin hansı məqsədlə hərbi təlimlər keçirməsi, təlimlər keçirməkdə qarşıya qoyulan məqsədlərin nədən ibarət olması, ortada olan niyyətin nə ola biləcəyi həqiqətən də maraq doğurur. Hər halda, keçirilən hərbi təlimlərin düşünülməmiş olması heç də inandırıcı deyil və şübhə yoxdur ki, həmin təlimlərin keçirilməsi nəyə isə hesablanıb, hansı ki, diqqəti də cəlb edən məhz budur.***



## Küçə nümayişlərilə hakimiyyəti ələ keçirəndən və komandasından heç kimin ağlına gəlməyən manipulyasiyalar gözləməyə dəyər

Heç şübhəsiz ki, işğalçı ölkənin keçirdiyi təlimlərin arxasında gizli məqamlar var və Ermənistan belə hərbi təlimləri boş yerə, heç bir məqsəd güdmədən keçirmir. Hansısa məqsədlərin olması danılmazdır. Amma hansı məqsədlər ola bilər? Bax elə düşündürücü də məhz budur. Ən düşündürücü məqam isə ondan ibarətdir ki, Ermənistan son vaxtlar sərhədyanı ərazilərdə məhz "hava hücumu zamanı əhalinin xəbərdar edilməsi, sığınacaqlara yerləşdirilməsi və təxliyəsi üzrə işin təşkili" çərçivəsində hərbi təlimlər keçirir. Ələlxüsus da İrəvanın Kəlbəcər və Laçın təxribatından sonra ermənilərin belə təlimlər keçirməsi diqqəti cəlb edir və bunun da arxasında hansısa məqamların olduğu güman edilir. Maraqlıdır, axı bunun pərdə arxasında nə gizlənir və nə kimi niyyətlər, nə kimi hiyləgərliklər ola bilər? Ən azından hər kəs bilir ki, erməni hiyləgərliyi sərhəd tanımır və haylardan nə desək gözləmək olar. Xüsusən də küçə nümayişlərindən istifadə edərək, hakimiyyət kürsüsünü ələ keçirən erməni baş nazir Nikol Paşinyandan və onun hakimiyyət komandasından heç kimin ağlına gəlməyən manipulyasiyalar gözləməyə dəyər. Ən azından hər kəs hesab edir ki, sözügedən hərbi təlimlərin hansısa pərdəarxası məqamları var və bunun nə ola biləcəyi də kimsəni düşündürməyə bilməz.

## Hərbi təlimlər İrəvanın hansısa hiyləgər planından və sülh gündəliyindən, sülh danışıqlarından yayınmağa çalışdığından xəbər verir

Əlbəttə ki, barəsində qeyd olunan hərbi təlimlərin adından da görünür ki, hansısa hərbi əməliyyatlar barədə erməni cəmiyyəti bir növ xəbərdar edilir. Daha dəqiq desək, guya hansısa hərbi əməliyyatların ən azından olma ehtimalı barədə bildirilir. Yaxud da, ermənilər arasında hərbi əməliyyatlar barədə hansısa fikir formalaşdırılır. Maraqlıdır ki, niyə belə bir fikir formalaşdırmaq, yaxud, guya hərbi əməliyyatların olma ehtimalı barədə xəbərdar etmək niyyəti yaranır axı? Axı rəsmi İrəvan istənilən beynəlxalq platformalarda da, görüşlər zamanı da ağız dolusu, özü də pafosla sülh danışıqlarından dəm vurur. Bəs əgər Ermənistan hakimiyyətinin niyyəti sülh müqaviləsi bağlamaqdırsa, o zaman hərbi təlimlərə nə ehtiyac qalırdı, yaxud da hərbi əməliyyatların olması ehtimalı barədə "xəbərdarlıq" nəyə lazım idi? Görünür, rəsmi İrəvanın yenə də hansısa hiyləgər planı var və yenə də sülh gündəliyindən uzaqlaşmağa, sülh danışıqlarından yayınmağa çalışır. Məhz sülhdən özgə hansısa addımların atılması bunu deməyə əsas verir. Çünki sülh danışıqlarında maraqlı olan tərəf heç zaman hərbi təlimlərə maraq göstərməz. Əksinə, sülh prosesini daha çox sürətləndirən addımlar atılması ön planda olar. Amma biz rəsmi İrəvanın timsalında bunun əksini müşahidə edirik. Bu isə onu deməyə əsas verir ki, təlimlərin keçirilməsində hansısa pərdəarxası məqamlar var.

## Hərbi əməliyyatlar barədə düşünməyə belə nə Paşinyanın, nə komandasının, nə erməni müxalifətinin, nə də havadarlarının cürəti də çatmaz

Sözsüz ki, hər kəsi düşündürən məhz bu hərbi təlimləri keçirməkdə Ermənistan hakimiyyətinin nə məqsəd güdməsidir. Məhz 44 günlük müharibədəki rüsvayçı məğlubiyyətindən sonra Ermənistan liderinin hərbi təlim keçirməkdə niyyətinin nə olması düşündürücü olmaya bilməz. Xüsusən də bir sutkadan da az müddətə başa çatan və Azərbaycan ərazilərində olan erməni silahlılarının təslim olmaları, silahı qoyub ərazilərimizi tərk etməsi ilə nəticələnən anti-terror tədbirlərindən sonra Paşinyanın və onun hakimiyyət komandasının ağlına nə gələ bilər ki, hərbi təlimlər barədə düşünülə? Axı indi bütövlükdə erməni cəmiyyəti çox yaxşı bilir ki, növbəti hərbi əməliyyatlar Ermənistanın tamamilə məhv olması deməkdir. Çox yaxşı məlumdur ki, istənilən hərbi əməliyyat cəhdi belə Ermənistan üçün şox böyük fəlakət hesab olunur. Bütün qüvvəsi ilə cəmi 44 gün belə Azərbaycan Ordusu qarşısında davam gətirə bilməyən erməni silahlılarının bu boyda rüsvayçı məğlubiyyətindən, bu qədər itgilərindən, 20 minə yaxın fərarisinin döyüş meydanını qoyub qaçmasından, saya-hesaba gəlməz tələfatından, hərbi sursatının itirilməsindən sonra Ermənistanın hərbi əməliyyatları düşünməsi belə ağıla sığan bir şey deyil. Bunu düşünməyə belə nə Paşinyanın özünün, nə onun hakimiyyət komandasının, nə erməni müxalifətinin, nə də havadarlarının cürəti, cəsarəti də çatmaz. Çünki hər biri öz növbəsində yaxşı bilir ki, bu dəfə hərbi əməliyyatlara rəvac vermək bir ölkənin tamamilə xəritədən silinməsi bahasına haylara başa gələ bilər.

## Ermənistanda keçirilən hərbi təlimlər də daxili auditoriyaya hesablanıb

Əgər Nikol Paşinyan və onun hakimiyyət komandası hərbi əməliyyatlar barədə düşünməyə belə cəsarət etmirsə, o zaman hərbi təlimlər nəyə lazımdır? Ümumiyyətlə, hərbi əməliyyat qorxusu, kompleksi fonunda bu hərbi təlimlər nəyə hesablana bilər axı? Bunun arxasında nə var və pərdəarxası məqamları nədən ibarətdir? Əlbəttə ki, hərbi əməlliyyatlardan çəkinməsi, hətta qorması fonunda Nikol Paşinyanın hərbi təlimlər keçirməyə maraqlı olması ancaq və ancaq erməni cəmiyyətini növbəti dəfə müharibə ilə qorxutmağa çalışması ilə izah edilə bilər. Görünür, məhz elə təkcə özünün yox, bütövlükdə erməni cəmiyyətinin, hayların hamısının müharibə qorxusundan da Paşinyan istifadə etməyə çalışır. Əlbəttə ki, belə vaxtaşırı təlimlər keçirməkdə rəsmi İrəvanın məqsədi də sanki gərginlik, hücum ehtimalı varmış kimi təəssürat yaratmaqdan ibarətdir. Doğrudur, bizim Ermənistana hücum etmək kimi bir niyyətimiz yoxdur və rəsmi Bakı bunu dəfələrlə də bəyan edib. Nikol Paşinyan özü də əmindir ki, Azərbaycan tərəfinin Ermənistana hücum etmək niyyəti yoxdur, amma bununla belə yenə də hücum ehtimalı təəssüratı yaratmağa çalışır ki, bu da səbəbsiz deyil. Səbəb də ondan ibarətdir ki, erməni baş nazir bilərəkdən belə bir təəssürat yaratmaqla daxili auditoriyanı qorxu və təhdidlə nəzarətdə saxlamaq istəyir. Bir sözlə, Ermənistanda keçirilən hərbi təlimlər də daxili auditoriyaya hesablanıb.

## Qorxu kompleksi də, hərbi təlimlərinin kökündə qorxu kompleksinin olduğu da başa düşüləndir

Hərbi təlimlərin adı da diqqəti cəlb etməyə bilməz və "hava hücumu zamanı əhalinin xəbərdar edilməsi, sığınacaqlara yerləşdirilməsi və təxliyəsi üzrə işin təşkili" çərçivəsində hərbi təlimlərin keçirilməsi özü də bir çox məqamlardan xəbər verir. Əvvəla onu diqqətə çatdıraq ki, analoji şəkildə hərbi təlimləri bir zamanlar işğal altında saxladıqları Qarabağ ərazilərində də keçirən Ermənistanın qorxu kompleksinin olması bəlli olur. Azərbaycanın Qarbağ ərazilərini işğal altında saxladığı dövrdə də buna bənzər təlimlər keçirilməsi, erməni əsilli əhalinin zirzəmilərə, sığınacaqlara doldurulması məhz qorxu kompleksi ilə əlaqədar idi. Çünki, onlar bilirdilər ki, özlərinə məxsus olmayan torpaqları işğal edib, zəbt edib özününkü adlandırmalarına görə cavab verməli olacaqlar, necə ki, belə də oldu. Məhz qorxu kompleksi də ona görə mövcud olub və indi də qorxuları başadüşüləndir. Ona görə başadüşüləndir ki, ermənilər özləri də tarix boyu Azərbaycan ərazilərində məskunlaşdıqlarını, sonra həmin əraziləri özününkü elan etdiklərini yaxşı bilirlər. Yaxşı bilirlər ki, hazırki Ermənistan ərazisi onların özlərinə məxsus deyil, məhz Azərbaycan əraziləridir. Eyni ilə Qarabağda qorxu kompleksi fonunda hərbi təlim keçirdikləri kimi, məhz Ermənistanda da bu şəkildə təlim keçirirlər. Hətta başa da düşürlər ki, tarixi Azərbaycan ərazilərindən silahlı qüvvələrimizə qarşı atəş açmaqda davam edərlərsə, sülh prosesindən yayınarlarsa, Azərbaycanın səbr kəsası dola və daşa bilər. Ona görə də Ermənistanın qorxu kompleksini də başa düşürük, hətta hərbi təlimlərinin kökündə qorxu kompleksinin olduğunu da...

***İnam Hacıyev***

# İran, Şoyqu və Zəngəzur dəhlizi

**Azərbaycan Ermənistandan sülh tələb edir, münaqişəni, müharibəni, qarşıdurmanı rədd edir. Bu barədə ölkəmizin həm rəsmi, həm də qeyri-rəsmi dairələrində fikirlər üst-üstə düşür. 30 illik münaqişənin sonlandırmaq üçün Bakı bütün imkanlardan istifadə edir. Amma İrəvan hələ də vaxtı uzadır, revanşist addımlarla özünü ümidləndirir, silahlanır, Avropada, Asiyada özünə tərəfdaşlar toplamağa can atır. Nəticə isə eynidir, Azərbaycan əzəli torpaqlarını heç kimə peşkəş vermək niyyətində deyil. Müharibə ilə gələnin isə aqibətini gördük**



Bu gün hər kəs sülhdən danışır, əlbəttə, bura Ermənistanı və əksər erməniləri aid etmək olmaz. Azərbaycan sülh üçün bəzi şərtlər irəli sürür və şərtlər beynəlxalq sənədlərlə oxşarlıq təşkil edir. Yəni iki dövlət bir-biri ilə sülh bağlayırsa, tərəflərin ali sənədlərində, yəni konstitusiyasında qarşı tərəfə ərazi iddiaları olmamalıdır. Ermənistanda isə nəinki Azərbaycana, hətta qardaş Türkiyəyə də ərazi iddiaları var. Bu isə sülhlə bir araya sığmır. Eyni zamanda müharibəni bitirmək üçün imzalanmış üçtərəfli Bəyanatın 9-cu bəndinə görə Azərbaycanın qərb rayonları ilə Naxçıvanı maneəsiz birləşdirən Zəngəzur dəhlizinin açılması nəzərdə tutulub. Amma ötən 3 il yarım ərzində Ermənistan nəinki infrastrukturun yaradılmasına cəhd etməyib, hətta bütün danşıqlarda bunun mümkünsüzlüyünü dilə gətirib ki, bu da qəbul edilmiş sənədlə bir araya sığmır. İrəvan bununla ən azından öz nüfuzunu ayaqlar altına atır.



"Söhbət Konstitusiyanın Azərbaycanın təzyiqi altında dəyişdirilməsindən deyil, seçicilərin bir suala cavab verməsindən gedir: Siz sülh istəyirsiniz, yoxsa Azərbaycanla yeni qarşıdurma üçün fürsət? Əgər Ermənistan hakimiyyəti sualı bu cür qoyarsa, düşünürəm ki, referendumda iştirak edəcək Ermənistan vətəndaşlarının əksəriyyəti sülhü dəstəkləyəcək", - bunu müsahibəsində Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi, səfir Elçin Əmirbəyov deyib o bildirib. O, əlavə edib ki, biz əmin olmaq istəyirik, sülh sazişi keçmişdə olduğu kimi gələcəkdə revanşizmi və ya Azərbaycana qarşı hər hansı ərazi iddialarını mümkünsüz edəcək bir növ sarsılmaz sazişdir əlavə edib.

Prezidentin xüsusi nümayəndəsinin sözlərinə görə, hazırda danışıqları asanlaşdıran amillərdən biri də odur ki, hər iki tərəf qalan məsələlərdən ən mübahisəli olanını - Azərbaycanın qalan hissəsini onun eksklavı olan Naxçıvanla birləşdirəcək nəqliyyat marşrutlarının təşkili, yəni Zəngəzur dəhlizi məsələsini həll etməyə razılaşıb. "Biz qarşılıqlı razılaşma əsasında bu bəndi sülh sazişindən çıxarmaq və onun müzakirəsini sonrakı mərhələyə keçirmək qərarına gəldik. Beləliklə, biz onu mətndən çıxarmağa qərar verdik, lakin bunun ölkələrin gələcəkdə müzakirə etmək və ümumi razılığa gəlmək üçün qayıda biləcəyi məsələlərdən biri olması faktını hələ də mətndə əks etdirə bilərik", - o qeyd edib.

Deməli, Zəngəzur dəhlizi prioritet olsa da, hələlik gündəmdə deyil. Əsas məsələ sülhdür. Naxçıvana yol yox deyil. Bu gün işlək vəziyyətdə olan, sabah isə yenisi ilə əvəzlənəcək İran üzərindən keçid var. Münasibətlər də yüksək səviyyədədir. Amma bəzi dövlətlər var ki, hərəkətləri ilə ya bunu ləngidir, ya da dəhlizin açılmasını tezləşdirmək istəyir. Əlbəttə, hər iki tərəf öz maraqlarından çıxış edir və birbirinə heç də dost münasibətdə deyillər. Bunlar Rusiya və ABŞ-dır. Hər iki tərəfin öz maraqları və meyarları var. Yəni söhbət Zəngəzur dəhlizinin də içində olduğu Orta Dəhlizə kimin nəzarət etməsindən gedir. Hər iki tərəfin savaşı bunun üstündədir.

### Şoyqunun İran səfəri...

Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun Bakıya gəlməzdən əvvəl İranda səfərdə oldu. İran-İsrail gərginliyinin pik həddə olduğu bir vaxtda Rusiyanın yüksək çinli məmurunun Tehrana səfəri özü ilə birgə çoxlu suallar yaradıb. Ən böyük sual da,Şoyqunun İrandan birbaşa Bakıya gəlməsidir. Şoyqu səfər zamanı İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi, Silahlı Qüvvələrinin Baş Qərargah rəisi və prezident Məsud Pezeşkianla görüşlər keçirib. Təhlükəsizlik, ticarət-iqtisadi layihələr, eləcə də qlobal və regional təhlükəsizlikdən başqa, Tehranın Moskvadan konkret istəkləri də olub. Təbii ki, İran indiki halda Rusiyadan yalnız silah istəyə bilər və istəyib. "Su-35" qırıcıları, hava hücumundan müdafiə sistemləri, radar qurğuları ilk sırada dayanır. Bəzi növlərdə razıııq əldə olunsa da "Su-35" qırıcılarının İrana satışı hələlik real görünmür.

Rusiya indiki məqamda genişmiqyaslı İran-İsrail müharibəsinin olmasını istəmir. Prezident Vladimir Putin İranın dini lideri Ayətullah Xameneidən HƏMAS-ın siyasi liderinin Tehranda öldürülməsinə sakit cavab verməsini və İsrailin mülki obyektlərini hədəf almamağı xahiş edib. Total bir müharibə gərginliyin arealını genişləndirə, prosesə başqa oyunçuları cəlb edə bilər. Bu zaman Rusiya İranı qorumalı olduğu üçün prosesin böyüməsində maraqlı deyil. Digər tərəfdən, İran-İsrail gərginliyi Cənubi Qafqaza da sıçraya bilər. Digər tərəfdən Yaxın Şərqdə gərginlik, müharibə ab-havası Rusiyaya sərf edir. Əvvəla, Rusiya bu yolla böyük ölçüdə silah satışı gerçəkləşdirə bilər. İran artıq Rusiyanı arzularına çatdırır, bahalı silahlar istəyir, "Hizbullah" və HƏMAS-a da silah tədarükü edilə bilər. Bununla da Rusiya Ukraynada itirdiklərini və müharibə zamanı "qazandığı" sanksiyalar səbəbindən sata bilmədiklərini bu gün rüallaşdıra bilər. İkincisi, nə qədər ki, İran-İsrail qarşıdurması sözdən total müharibə fazasına keçməyib ABŞ regiona diqqətini artıra bilər. Hazırda isə Rusiya Ukraynada üstünlük əldə edib və bunu Yaxın Şərqə də daşımaq istəyir.




### Şoyqu Azərbaycan Prezidenti ilə görüşdü

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunu qəbul edib. Azərbaycan liderinin mətbuat xidmətindən verilən məlumata görə, görüş Bakıda baş tutub. Heç bir təfərrüat verilmir. Avqustun 5-də cənab Şoyqu Tehranda İran prezidenti Məsud Pezeşkianla danışıqlar aparıb. Onlar əməkdaşlıq haqqında razılığa gəliblər, həmçinin Yaxın Şərqdəki münaqişələri və "ABŞ-ın üçüncü ölkələrin işlərinə müdaxiləsini" müzakirə ediblər. Bundan əlavə, Rusiya Təhlükəsizlik Şurasının katibi İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqiri ilə də görüşüb.

İran prezidenti Məsud Pezeşkian Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu ilə görüşündə İran hakimiyyətinin HƏMAS Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin qətlinə görə İsrail qarşısında cavab verəcəklərini vəd edib. Pezeşkianın sözlərinə görə, İran münaqişəni gərginləşdirməyə çalışmır, lakin "İsrailin cinayətlərinə" cavab zərbəsi endirmək niyyətindədir. İran prezidenti cənab Şoyqu ilə söhbətində deyib: "İran İslam Respublikası regionda müharibə və böhranın miqyasını genişləndirmək niyyətində deyil, lakin bu rejim öz cinayətlərinə və həyasızlığına mütləq cavab verəcək". Məsud Pezeşkian həmçinin Rusiyanın Fələstin xalqına dəstəyini yüksək qiymətləndirib.

İrandan sonra Azərbaycana səfər edən Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun bu ziyarətləri həm dünya, həm də ölkə ictimaiyyəti arasında ciddi müzakirə yol açıb. Əksər təhlilçilər bu səfəri Rusiyanın İranı dəstəkləməsi kimi dəyərləndirib. Yəni, Rusiya rəsmisi bu addımı atmaqla Vaşinqtona İrana hücum etməmək mesajını verib.

Bəzi şərhçilər isə Rusiyanın indiki vaxtında, Ukrayna ilə aktiv müharibə şəraitində, bütün Qərbin ona qarşı birləşdiyi bir vəziyyətdə İranı dəstəkləməyin onun milli maraqlarına zidd olduğunu bildirirlər. Moskvanın məqsədi İran-İsrail gərginliyini bir az daha artırmaqdır. Bu, ABŞ-ın diqqətini Ukrayna savaşından yayındıracaq və NATO ölkələri bütün diqqətlərini Yaxın Şərqə yönəldəcək. Bu gün bütün dünyada maraqların savaşı gedir. Bəzi dövlətlər üzdə düşmən olsalar da, bəzi məsələlərdə eyni mövqedədirlər. İran da bunun fərqindədir və məhz bu səbəbdən də son zamanlar Rusiyadan kənarlaşıb Avropaya meyllənmək xəttini tutub. Məsələ burasındadır ki, İrana qarşı Qərbin total hücumu İran körfəzində neft daşınmalarını tamamilə dayandıra, ən yaxşı halda isə kəskim məhdudlaşdıra bilər. Bu da dünya bazarında neftin kəskin bahalaşmasına səbəb ola bilər. Nəticədə Orta Dəhliz aktuallaşa bilər. Orta dəhlizə isə nəzarəti Qərblə Rusiya ələ keçirmək uğrunda Yaxın Şərqdəki münasibətlərdən də kəskin mövqe ortaya qoyurlar. Yəni qarşıdurma ondan da betərdir. Amma Cənubi Qafqazın hansı ölkəsi üzərindən bunu etməyə çalışırlar. Əlbəttə, Ermənistan həm Qərb, həm də Rusiya üçün "ələyatım" ölkə sayılır.

Azərbaycanı isə regional lider kimi unutmaq olmaz, Bakının razılığı olmadan regional layihələrin heç birinin həyata vəsiqə qazanmadığını ən yaxşı Qərbdə bilirlər. ABŞ-ın Zəngəzur dəhlizinin açılmasında ciddi marağının olduğu deyilir. Bu mənada gizli danışıqlar versiyasının Vaşinqtonun nəzarətində aparıldığına dair iddialar var. Qeyd olunur ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh müqaviləsinin imzalanması üçün həlli vacib olan məsələlərdən biri də Zəngəzur dəhlizinin açılmasıdır. Məsələ ilə bağlı həm Bakı ilə İrəvan, həm də qlobal güclər arasında müəyyən bir rəqabətin olduğu bildirilir. Regionun əsas ölkələri Rusiya və Türkiyə dəhlizinin açılmasında maraqlıdırlar. Moskva isə ümumiyyətlə dəhlizə özünün nəzarət etməli olduğunu düşünür. Bu nə Bakının, nə Ankaranın, nə də İrəvanın ürəyincədir.

ABŞ isə dəhlizin Ermənistanın suverenliyi çərçivəsində açılmasını istəyir. Vaşinqton Zəngəzur dəhlizinə Ermənistanın nəzarət etməli olduğunu deyir. Suverenlik məsələsində Bakının xüsusi tələbi olmasa da, İrəvanın dəhlizə nəzarət etməsi bizim maraqlarımıza uyğun deyil. Çünki 10 noyabr bəyanatında maneəsiz hərəkət anlaşıyı var. Bunun sıradan çıxmasına icazə verə bilmərik. Amerika Birləşmiş Ştatları Cənubi Qafqazda fəal şəkildə iştirakını genişləndirir və Rusiyanın bu regionda təsirini azaltmağa çalışır. Məhz bu məqsədlə Vaşinqton yeni ticarət yolunun yaradılması üzərində işləyir, onun açılması Moskvanın - eyni zamanda Pekinin və Ankaranın maraqlarına təsir edəcək. ABŞ üçün beynəlxalq münasibətlərdə əsas şey pulların, boru kəmərlərinin və dəhlizlərin hara getməsidir. Demokratiyanın, insan haqlarının qorunması, siyasi proseslərin şəffaflığı kimi məsələlər fundamental xarakter daşımır. Bunlar müəyyən ölkələri istənilən istiqamətə aparmaq üçün istifadə edilən çubuqlardır.

Şoyqunun səfərində əsas məqamlardan biri körfəzdə yaranacaq problem səbəbindən diqqətin Cənubi Qafqaza yönəlməsidir. Nə qədər ki, Rusiya sərhədçiləri İranla sərhədi nəzarətdə saxlayır, həm də İranın başı Yaxın Şərqə qarışıb Zəngəzur dəhlizini işlək vəziyyətə gətirmək lazımdır. Moskva buna çalışır. Əlbəttə, bu versiyalardan biridir, digər bir məsələ isə Amerika ordusunun bəzi hissələdinin Zəngəzurdakı erməni hərbi hissələrinə müxtəlif adlar altında yerləşdirilməsi barədə məlumatların dolaşmasıdır. Gələcəkdə bunun həm Azərbaycan, həm də Rusiya üçün problemlər yaradacağı bəllidir.

**V.VƏLİYEV**

# Bakıda bina və obyektlər deyil, məhz parklar salınır

## Bu, dövlətin insan amilinə verdiyi dəyərdir

***Ötən illər ərzində dövlətimizin başçısının təşəbbüsü ilə paytaxt Bakı şəhərində 400-ə yaxın yeni park salınıb və proses davam etdirilir. Son bir neçə ildə isə Bakı və onun ətraf qəsəbələrində 65 yeni mədəniyyət və istirahət parkı salınıb. Bununla yanaşı, 100-dən çox park əsaslı təmir olunub. Paytaxtın müxtəlif ərazilərində salınan parkların sayəsində insanlar istirahətini və asudə vaxtını səmərəli qura bilir. Bakı şəhərində əhali artımını, şəhərin ekoloji vəziyyətini nəzərə alsaq, parkların salınması, yaşıllıq amilinə xüsusi diqqət yetirilməsi dövlətimiz tərəfindən insan amilinə verilən dəyərdir.***



### Bakı gündən-günə gözəlləşir...

Bu, şəhərin hər tərəfində, hər addımda hiss olunur. Salınan yaşıllıq zolaqları, əyləncə, istirahət mərkəzləri, parklar, xiyabanlar insanların asudə vaxtlarını səmərəli keçirmələri ilə yanaşı, həm də şəhərimizin qonaqlarının zövqünü oxşayır. Bunu paytaxtımıza gələn turistlərin sayının günbəgün artması da sübut edir. Digər tərəfdən də bu qədim şəhərə müasir kolorit qatır ki, Bakı şəhəri bu sürətli inkişaf tempi ilə dünyanın bir çox gözəl, müasir şəhərləri ilə eyni sırada dayanır.

Paytaxtda aparılan geniş tikinti-quruculuq işləri çərçivəsində bir çox yerlərdə istismar müddəti bitmiş, qəzalı tikililərin əvəzinə yeni bina və obyektlər yox, məhz parklar salınır.

Bakı Şəhər İcra Hakimiyyətinin məlumatına əsasən hazırda Bakı şəhərinin ərazisində 10 meqaparkın salınması işləri həyata keçirilir, bəzi parkların ərazisi artırılır. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Mərkəzi Nəbatat, həmçinin Mərdəkandakı Dendrologiya parklarında əsaslı təmir-yenidənqurma işləri görülür və ilin sonuna kimi başa çatdırılması nəzərdə tutulub. Bir neçə il əvvəl salınmış "Gənclik", "Nizami Gəncəvi", Yasamaldakı Meşə-park, "Çəmbərəkənd", Mərkəzi və Qış parklarında şəhər sakinləri və şəhərimizə gələn çoxsaylı qonaqların istirahəti üçün hər cür şərait yaradılıb, müasir idman və uşaq əyləncə qurğuları quraşdırılıb.





Hazırda Xətai rayonunda yerləşən "Sevgi" parkının genişləndirilməsi ilə bağlı işlər görülür. Bununla əlaqədar şəhərin əsas magistral yollarından sayılan Yusif Səfərov küçəsinin ətrafında yerləşən və istismar müddəti bitmiş tikililər sökülüb və ərazidə yaşayan sakinlərə, obyekt sahiblərinə mövcud qanunvericiliyə uyğun kompensasiya ödənilməsi şərti ilə onların köçürülməsi prosesi həyata keçirilib. Abadlıq işləri davam etdirilir.




Bu gün Mərkəzi parkın 3-cü hissəsində genişləndirmə-abadlıq işləri görülür, Nərimanov rayonunda Ceyhun Hacıbəyli, Nəsib bəy Yusifbəyli, Vaqif küçələrinin kəsişməsində yeni meqapark salınır. Eyni zamanda, Xaqani bağında yenidənqurma işlərinə başlanılıb. 28 May, Mehdi Mehdizadə, Elman Ovçuyev və Hüseyn Rəsulbəyov küçələrinin kəsişməsində 12 hektar sahədə yeni park salınır. Həmçinin dəmir yol vağzalının qarşısındakı meydanda təmir işlərinin aparılması üçün layihə smeta sənədləri hazırlanıb.

Bir sözlə, paytaxtın daha da yaşıllaşdırılması və gözəlləşdirilməsi istiqamətində işlər davam etdirilir. Şəhərin əsas küçə və prospektləri boyunca, mövcud park və istirahət bağlarında yeni ağaclar, həmişəyaşıl kollar və rəngbərəng güllər əkilir, güllərdən müxtəlif kompozisiyalar düzəldilir.

Ardı səh. 6











# Bakıda bina və obyektlər deyil, məhz parklar salınır

## *Bu, dövlətin insan amilinə verdiyi dəyərdir*

Əvvəli Səh. 5

Yol kənarlarındakı işıq dirəklərinə və eyvanlara gül əkilən kaşpolar qoyulur.

### Şəhərimizə yay hədiyyələri - Nərimanov parkı

Nərimanov rayonu ərazisində yenidən qurulan Nərimanov parkı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir.

Prezident İlham Əliyev iyulun 15-də Bakının Nərimanov rayonunda əsaslı şəkildə yenidən qurulan Nərimanov parkının açılışında iştirak edib.

Ərazisi 4,1 hektar olan park XX əsrin 50-ci illərində salınıb. Ötən müddətdə bu park gəzinti və əyləncə baxımından şəhər sakinləri üçün sevimli məkana çevrilib. 1960-cı illərdə yaxınlıqda metro stansiyasının tikilməsi parka marağı daha da artırıb.

Şəhərimizin müasir inkişaf səviyyəsinə və memarlıq üslubuna uyğun olmayan park nadir dizaynda yenidən qurulub. Burada müxtəlif istirahət guşələri, əyləncə qurğuları yaradılıb, o cümlədən uzun müddət yararsız vəziyyətdə olan fəvvarə meydanının yenidən qurulması işləri həyata keçirilib.

Parkın ərazisində yeni yaşıllıq sahələri yaradılıb, istismara yararsız, parkın ümumi görkəminə xələl gətirən tikili və qurğular ərazidən götürülüb. Mövcud ictimai-iaşə obyektlərinin fasadları müasir üslubda, parkın yeni layihəsinə uyğun təmir edilib, o cümlədən yeni işıq dirəkləri, eləcə də idman qurğuları və uşaq əyləncə meydançası yaradılıb. Mühəndis-kommunikasiya xətləri əsaslı şəkildə yenilənən park yağış sularının axıdılması üçün nəzərdə tutulan xətlərlə təmin edilib.

### Zəfər parkı

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Sərəncamdan dərhal sonra Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihələri hazırlandı və tikinti işlərinə başlanıldı. İyulun 24-də dövlətimizin başçısı Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olub.

"PMD Projects" şirkətinin direktoru Nəriman Topçibaşev parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verərək bildirib ki, 8 Noyabr prospektində inşa olunan Zəfər parkının ərazisi doqquz hektardan çoxdur.

Parkın girişində 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edir. İnşası davam edən tağın hündürlüyü 44 metr, eni isə 22 metrdir. Parka keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə Zəfər Gününü və sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər Muzeyinə park ərazisindən iki istiqamətdə giriş olacaq. Sahəsi 9 min 200 kvadratmetr olan muzeyin yan divarında Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan əsgər və zabitlərin adları qeyd ediləcək.

Ziyarətçilər muzeyi gəzdikdən sonra park hissəsinə daxil ola biləcəklər. Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası və parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası da nəzərdə tutulur. Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri yaradılacaq, oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq.

Qeyd edək ki, 2023-cü il sentyabrın 27-də Anım Günündə də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva inşası davam etdirilən Zəfər parkında görülən işlərlə tanış olmuşdular.

### "Gənclik" metrosu yanında yeni park

Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin 2023-cü il 18 avqust və 2024-cü il 13 yanvar tarixli sərəncamlarına əsasən Nərimanov rayonunda salınan yeni parkdır.

İyulun 30-da dövlətimizin başçısı "Gənclik" metrosu yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olub. Məlumat verilib ki, "Antena" parkı kimi tanınan bu ərazi əvvəllər baxımsız vəziyyətdə olub. İstirahət parkının yenidən qurulması və bərpası ilə əlaqədar bu ərazidə yararsız vəziyyətdə olan bəzi tikililər sökülüb. Söküntü işlərindən sonra parkın ərazisi daha da genişləndirilib və 19 hektara çatdırılıb.

Yenidən qurulan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılacaq. Belə ki, burada müasir tələblərə cavab verən iki restoran inşa olunur. Həmçinin burada 2 fəvvarə də quraşdırılacaq. Bu da istirahət məkanına əlavə gözəllik verəcək.

Müasir istirahət kompleksinin ərazisinin 13,8 hektarında yaşıllıq sahələri salınacaq. Burada işıqlandırma sistemi yeni layihə əsasında ən müasir standartlara uyğun şəkildə qurulacaq. Parkda piyada və velosiped yolları çəkiləcək, uşaq-əyləncə və idman meydançaları yaradılacaq. Həmçinin yenidən qurulan parkla yaxınlıqdakı "Dədə Qorqud" parkını əlaqələndirəcək tunelin də inşasına başlanılıb.

### Yeni parklar "Yaşıl dünya naminə həmrəylik ili"nə töhfədir

Dövlətimizin başçısının tapşırığı ilə paytaxt Bakıda parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə ardıcıl tədbirlər davam etdirilir. "Yaşıl dünya naminə həmrəylik ili"ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Yeni parkların salınması həmçinin bu il COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır. Ən əsası isə görülən işlərin hər biri insan amilinə xidmət edir.

***Mətanət Məmmədova***

# Sağlamlıq turizmi: inkişaf üçün potensial böyükdür

***Bu gün olduğu kimi, əsrlər boyu vətənimiz doğma Azərbaycan turist ölkəsi olaraq tanınıb. İstər qədim dövrlərdə, istərsə də sovet məkanında yaşadığımız zamanda Azərbaycan təbiəti, təbii sərvətləri, iqlimi, yeraltı və yerüstü sərvətləri ilə xarici vətəndaşların diqqətində olub.***

Azərbaycanın ən gözəl məkanları olan Qubanın Xınalıq kəndi, İsmayıllının Lahıc qəsəbəsi, Qusarın "Şahdağ" Qış-Yay Turizm Kompleksi, Şəkidəki Kiş Alban məbədi, Şəki Xan sarayı, dənizkənarı bulvarı ilə seçilən gözəl təbiətli Astara, Şuşanın, Laçının sərin bulaqları və əzəmətli dağları və meşələri də turizm üçün əlverişli məkandır. Qobustan qaya təsvirlərini dünya miqyasında görmək istəyən çoxlu insanlar var ki, qədim insan məskənlərini görmək, onlarla tanış olmaq hamı üçün maraqlıdırlar.

Ölkəmizdə turistlər üçün diqqətçəkan məkanlar dövlət tərəfindən xüsusi tarixi əhəmiyyət daşıyan nümunələrə, qalalara, istehkamlara, məbədlərə, təbii qoruqlara diqqət və qayğı artıb. Ölkə ərazisində yerləşən bir sıra abidələrdə, Bakı şəhərində "Şirvanşahlar Saray Kompleksi", "Məhəmməd" məscidi, "Kiçik Karvansaray", "Bazar meydanı", "Məktəbməscid", Şəki rayonunda "Şəki Xan Sarayı", qala divarları, "Kiş" alban məbədi, "Aşağı Karvansaray", "Şəkixanovların evi", Quba rayonunun Xınalıq kəndində "Əbu-Müslüm" və "Xıdır Nəbi" məscidləri, Şərur rayonunda "Qudi-Xatun" türbələri, Babək rayonunda "Əshab-ül-Kəhf" ziyarətgahı dini-mədəni abidə kompleksi, Gəncə şəhərində Nizami Gəncəvi məqbərəsi, Hacıqabul rayonunda "Pir Hüseyn" xanəgahı və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan abidələrdə bərpa-konservasiya işləri aparılıb.













Dünya turistlərinin diqqətini Azərbaycana cəlb etmək üçün müxtəlif istiqamətlərdə fəal işlər görülüb. Ölkənin turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi tanıtmaq məqsədilə kitablar, bukletlər, disklər hazırlanıb və yayılıb, dünyanın müxtəlif televiziya kanallarında reklamlar nümayiş etdirilib.

Bu gün beynəlxalq aləmin dövlətimizə olan marağının miqyası daha da genişlənib, turizm sahəsində həyata keçirilən dövlət proqramları, layihələr bu sahəsində böyük uğurlara səbəb olub. Ölkəmizdə turizmin müxtəlif növləri inkişaf edib. Qış turizmi, yay turizminə malik olan ölkəmizdə sağlamlıq turizmi, istirahət turizmi, idman turizmi və s. mövcuddur. Öz təbii sərvətləri ilə seçilən torpaqlarımız səfalı və müalicəvi əhəmiyyətə malikdir.

Zəngin relyefə və təbiətə malik olan Azərbaycanın vulkanların sayına, müxtəlifliyinə və aktiv fəaliyyətinə görə dünya ərazisində oxşarı yoxdur. Palçıq vulkanları ekoturizmin inkişafı üçün yaxşı obyektlər hesab edilir. Palçıq vulkanlarının əksəriyyəti Bakı və Abşeron yarımadasında yayılıb və onlardan bəziləri təbiət abidəsi kimi formalaşıb. Bu vulkanlar ölkəmizin təbii sərvəti olmaqla yanaşı, həm də xaricdən turistlərin cəlb olunması, ekoturizmin inkişafı üçün mühüm zəmin yaradır.Palçıq vulkanı müalicəvi əhəmiyyətə də malikdir. Belə ki, vulkanların palçığından 10-dan çox xəstəliyin müalicəsində istifadə olunur. Vulkan palçığı dəri, onurğa sütunu, mədə-bağırsaq traktı, şəkərli diabet xəstəlikləri, urologiya, kosmetologiya sahələri və s. üçün faydalıdır. Azərbaycana gələn turistlər palçıq vulkanları ilə tanış olmağa meyillidirlər. Mütəxəssislərin qənaətinə görə, Azərbaycanda vulkan palçığı neftlə qarışıq olduğu üçün o daha keyfiyyətlidir, kimyəvi tərkibinə görə Naftalan nefti ilə təxminən eynidir.

Dünyada olan 1700 palçıq vulkanından 700-ü ölkəmizdədir. Əsasən, Abşeron yarımadası, Şamaxı-Qobustan, Cənub-Şərqi Şirvan və Bakı arxipelaqındadır. Onlardan 350-si aktiv vulkandır. Azərbaycanda 2 vulkan çox nadir hallarda rast gəlinən vulkanlardan sayılır ki, bunlar Qobustandakı "Qoturdağ" və "Çeyildağ" vulkanlarıdır. Palçıq vulkanları həm müalicəvi xüsusiyyətinə, həm də maraqlı təbiət hadisəsi olduğuna görə turistlərin diqqətindədir.

Ölkəmizdə bütün növ turizmlə yanaşı, sağlamlıq turizmin inkişafı üçün potensial böyükdür. Burada turistlər yüksəkkeyfiyyətli tibbi müalicə əldə edə bilirlər. Min bir dərdin dərmanı olan Azərbaycanın müxtəlif bölgələrində yerləşən istisu mənbələrinin, Naxçıvandakı Duzdağın, Şabrandakı Qalaaltının müalicəvi imkanlarından və s. insanlar yararlanırlar. Masallının istirahət mərkəzləri arasında "İstisu"yun öz yeri var. Buraya gələnlər dincəlməklə yanaşı, müxtəlif xəstəliklərdən də yaxa qurtarmaq imkanı əldə edirlər. "İstisu" sanatoriyası uzun illər primitiv şəkildə fəaliyyət göstərirdi. Masallı şəhərindən 13 kilometr aralıda, qərar tutmuş sanatoriya Dəmbəlov dağının döşündə, Viləş çayının sahilində yerləşir. Tərkibində hidrogen-sulfid, natrium-xlor kalsium, maqnezium-hidrokarbonat və hər litrində 30 milliqram yod var. Bu məhlul xəstəlikləri dava-dərmansız sağaldır. Qədim dövrlərdən yerli sakinlər bu sudan müalicə kimi istifadə ediblər. Dəmbəlov dağının döşündən çıxan isti su ilə revmatizm, oynaq ağrıları, artroz kimi fəsadları, pisarioz, germatit, neyrodermit, göbələk xəstəliyi, ekzema, böyrək və sidik yolları xəstəlikləri - pielit, uretrit, piolonefrit, habelə radikulit, prostatit, hipertoniya, qara ciyər xəstəlikləri və öd xəstəlikləri, qadın xəstəlikləri, mədə-bağırsaq ağrıları, travmatik ağrılar müalicə oluna bilər.

Unikal müalicəvi keyfiyyətlərinə görə dünyada tanınmış Naxçıvanda yerləşən Duzdağ Fizioterapiya Mərkəzi də turistlərin sevimli istirahət və müalicə məkanıdır. Yay aylarında təbii üsullarla bronxial-astma və digər yuxarı tənəffüs yolları xəstəliklərindən müalicə olunmaq üçün Naxçıvan şəhərindən cəmi 12 kilometr məsafədə yerləşən Duzdağ Fizioterapiya Mərkəzinə müraciət edənlərin sayında hər il artım müşahidə olunur. Duzdağ sağlamlığını bərpa etmək istəyənlər üçün əvəzolunmaz yerdir. Keçən əsrin 70-ci illərində Duzdağ şaxtalarında təşkil olunmuş yeraltı müalicə mərkəzinin şöhrəti hər tərəfə yayılıb. Burada tətbiq olunan müalicə üsulu mütəxəssislər tərəfindən də yüksək qiymətləndirilir.

Ümumiyyətlə, Naxçıvanın təmiz havası ilə bərabər, Duzdağ şaxtalarında mövcud olan hava şəraiti müalicənin müsbət nəticələr verməsinə şərait yaradır. Belə ki, insanların dərinliyə enmədən birbaşa duz şaxtasına daxil olması, il ərzində havanın sabit müsbət 20 dərəcə temperaturda qalması, 24 faiz nisbi rütubət, oksigenin havadakı miqdarının 20 faiz təşkil etməsi, sıfıra bərabər hava cərəyanı və zəhərli qazların son dərəcə minimum səviyyəsi Duzdağın müalicəvi effektini artıran əsas amillərdəndir.

Görülən işlər ölkəmizin turizm potensialının daha da üzə çıxarılmasına istiqamətlənib. Azərbaycanın turizm məkanlarının coğrafiyası yaxın zamanlarda daha da genişlənib. İşğaldan azad olunan ərazilərdə turizm mərkəzləri yaradılır. Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Onun suları ilə xəstəlikləri müalicə etmək mümkündür. İstisu bulağı üstündə 80-ci illərdə iri kurort və mineral sudoldurma zavodu tikilmişdi. Zəngilan isə meşə ehtiyatı ilə zəngindir. Bütün Avropada ən böyük çinar meşəsi bu rayonda olub. Hər bir torpağımızda zəngin turizm məkanları mövcuddur. Qarabağ bölgəsinin təkrarolunmaz təbiəti, səfalı yerləri və tarixi abidələri buranı qısa bir zaman məsafəsində turizm məkanına çevirəcək. Mövcud potensialdan səmərəli istifadə iqtisadiyyatın şaxələndirilməsini sürətləndiriləcək, turizm imkanlarımız daha da artacaq.

***Nəzakət Bayramova***

# Vitse-gülən adam

## *Kamala Harris özünə müavini necə seçdi?*

***Demokratlar Partiyasından prezidentliyə rəsmən namizəd olan Kamala Harris Minnesota qubernatoru Tim Valzın vitse-prezident postuna namizədliyini irəli sürəcəyini açıqlayıb. 60 yaşlı siyasətçinin xeyrinə seçim xüsusilə Demokratlar Partiyasının mütərəqqi qanadını ruhlandırıb və respublikaçı Donald Trampın tərəfdaşlarına "iki ifrat sol radikalın" Amerikaya rəhbərlik etməyə çalışdığını bəyan etməyə imkan verib. Buna baxmayaraq, cənab Valz ölkə daxilində məşhur olmasa da, məşhur qubernator hesab edilir və rəqiblərlə döyüşlərdə özünü sərt döyüşçü kimi sübut edib. Maraqlıdır ki, avqustun 6-da ABŞ-ın hazırkı vitse-prezidenti ilk dəfə milli sorğuların orta göstəricisinə görə Donald Trampı üstələyib, rəqibini simvolik 0,2% qabaqlayıb.***



Avqustun 6-sı Kamala Harris üçün yaxşı başlayıb. Birincisi, o, partiya nümayəndələrinin 99%-nin dəstəyini qazana bilib, bundan sonra Demokratlar onu rəsmən ABŞ prezidentliyinə namizəd kimi irəli sürüblər. İkincisi, bu gün xanım Harris noyabrın 5-də Ağ Ev uğrunda mübarizə aparacağı partnyorunun adını açıqlayıb. Minnesota qubernatoru Tim Vals Demokratlar Partiyasından vitse-prezidentliyə namizəd olub. Həm rəsmi namizədlik, həm də namizəd yoldaşının aşkarlanması xanım Harrisə bütün ABŞ mediasının diqqətini effektiv şəkildə ələ keçirməyə imkan verdi və onun artıq böyüyən kampaniyasına daha da təkan verib.

Kamala Harrisin kimin namizəd olacağı sualı 2024-cü il Amerika seçki tənliyində sonuncu naməlum məsələ idi. Ağ Evin hazırkı rəhbəri Co Bayden yarışdan çəkildiyini elan etdikdən dərhal sonra bəlli oldu ki, xanım Harrisin namizəd üçün seçim qıtlığı olmayacaq. Pensilvaniya qubernatoru Coş Şapiro və yelləncək Arizona senatoru və keçmiş astronavt Mark Kelli son üç həftə ərzində mediada açıq-aşkar favorit hesab edilən ondan çox ad çəkilib. Bununla belə, demokrat namizəd yoldaşının adını açıqlamazdan bir neçə gün əvvəl Tim Valzın adı mətbuatda getdikcə daha tez-tez görünməyə başladı.



Əksər ekspertlərin fikrincə, 60 yaşlı Minnesota qubernatoru vitse-prezidentliyə namizəd statusu uğrunda mübarizə aparan digər, daha çox milli demokratlarla müqayisədə tipik bir tünd at kimi görünürdü. Buna baxmayaraq, vitse-prezidentliyə namizəd, ekspertlərin fikrincə, demokrat partnyorun malik olmalı olduğu keyfiyyətlərə malikdir. Birincisi, Minnesota qubernatoru ağdərili, evli, iki uşaqlı kişidir. Xatırlayaq ki, Respublikaçılar Kamala Harrisin cinsinə, dəri rənginə və öz uşaqlarının olmamasına diqqət yetirərək ona hücum etməyə çalışırlar. İkincisi, cənab Valzın tərcümeyi-halı - demək olar ki, amerikalı siyasətçi üçün idealdır - həm də onun xeyrinə məqamlar əlavə etdi. 60 il ərzində demokrat məktəb müəllimi, futbol məşqçisi olmağı bacarıb, 20 ilə yaxın ABŞ Milli Qvardiyasında xidmət edib, Konqres Nümayəndələr Palatasının üzvü və nəhayət, qubernator kimi fəaliyyət göstərib.

Bundan əlavə, Tim Valz sol təmayüllü bir insan kimi tanınmasına baxmayaraq, respublikaçılarla döyüşlərdə özünü çox təcrübəli döyüşçü kimi göstərib. Məsələn, 2006-cı ildən bəri o, ardıcıl Minnesota ştatının ənənəvi respublikaçı bölgəsindən Nümayəndələr Palatasına seçilir və 2019-cu ildə bu ştatın qubernatoru seçilərək 2023-cü ilə qədər ştata tam nəzarətin ötürülməsinə nail ola bilib. yerli qanunverici orqan Demokratlara. Qubernatorluğu dövründə Minnesota marixuananı qanuniləşdirdi, qadınların abort hüququnu təsbit etdi, məktəblərdə pulsuz nahar təqdim etdi, infrastruktur xərclərini artırdı və bir sıra digər mütərəqqi siyasət və qanunlar qəbul edib.




Bu arada, Amerika cəmiyyətinin ən narahatedici problemlərindən biri olan silah daşımaq hüququ ilə bağlı cənab Valzın mövqeyi diqqətəlayiqdir. Belə ki, Qubernator Valzın rəhbərliyi altında Minnesota ştatı silah almaq istəyənlər üçün, o cümlədən onların heç bir cinayəti olmadığından əmin olmaq üçün məcburi şəxsiyyət yoxlamaları tətbiq etdi. Bununla belə, 60 yaşlı demokratın özü Milli Tüfəng Assosiasiyasının üzvüdür və bir müddət əhəmiyyətli məhdudiyyətlərlə olsa da, həmişə silah daşımaq hüququnu dəstəkləyib.

Bu fakt dərhal Donald Tramp tərəfdarları tərəfindən ələ keçirilib və onlar Harris-Valz cütlüyünü indiyə qədər prezident seçkilərində qalib gəlməyə çalışmış "ən solçu iki radikal" adlandırmağa başlayıblar. Cənab Trampın qərargahı dərhal Tim Valzı "təhlükəli liberal ekstremist" adlandırıb.

Bu arada, Kamala Harris və Tim Valzı avqustun 6-da Pensilvaniyadan başlayan yelləncək ştatlarına böyük bir tur gözləyir. İndiki vitse-prezident isə yəqin ki, yüksək əhval-ruhiyyə ilə ölkəni gəzməyə gedir. Xanım Harris iyulun 21-dən, prezident Co Bayden yenidən seçki planlarından imtina etdikdən sonra nəinki davamlı olaraq ictimai rəy sorğularında müsbət dinamika nümayiş etdirib, həm də RealClearPolitics portalına görə, ilk dəfə olaraq avqustun 6-da o, Donald Trampı qabaqlayıb. Bunun üçün müsbət dinamika yelləncək ştatlarında da müşahidə olunur, baxmayaraq ki, onların əksəriyyətində cənab Tramp hələ də liderliyi qoruyub saxlayır.

Yarışdakı yeni tendensiyalar, görünür, respublikaçıları çox əsəbiləşdirib. The Hill-in xəbər verdiyi kimi, Respublikaçılar Partiyasından olan qanunvericilərlə söhbətdən sonra eks-prezidentin seçki qərargahı Demokrat namizədi əvəz etməyə hazır deyildi və buna görə də yeni rəqibə qarşı mübarizə strategiyasını tez formalaşdıra bilməyib. Siyasi strateqləri gözləmədən, görünür, Donald Tramp məsələni öz əlinə almaq qərarına gəlib və Harris Kəmalənin siyasi baxışlarını tənqid etmək əvəzinə, onun ünvanına təhqirlər yağdırmağa başlayıb.

Eyni zamanda, cənab Tramp "kifayət qədər qara" olduğuna şübhə etməyə vaxt taparaq, xanım Harrisin cinsinə və dəri rənginə diqqət yetirməklə kifayətlənməyib, həm də onu müntəzəm olaraq "axmaq" adlandırmağa başlayıb. Son həftələrdə eks-prezident rəqibinin zəif zehni qabiliyyətləri və "aşağı IQ" haqqında o qədər danışıb ki, bir çox partiya üzvləri açıq və gizli həyəcan təbili çalıb. Respublikaçılar Partiyasının nümayəndələrinin fikrincə, eks-prezidentin davranışı mötədil seçiciləri özündən uzaqlaşdıra bilər və ona görə də o, sözün əsl mənasında daha az söyüş söyməlidir.

**V.VƏLİYEV**

# Ünvanlı sosial yardım kimlərə təyin olunur?





"Azərbaycan Respublikasının Qanununa əsasən, bu sosial yardımın məqsədi aztəminatlı ailələrin sosial müdafiəsinin təmin edilməsindən ibarətdir". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib. O bildirib ki, belə sosial yardım hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə və ya 8 yaşına çatmamış uşağa qulluq etməsi, 23 yaşınadək əyani təhsil alması, müvafiq icra hakimiyyəti orqanında dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi ilə əlaqədar işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər: "Orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailə aztəminatlı ailə hesab olunur. Qohumluq və ya qanunvericiliklə müəyyən olunmuş digər xüsusiyyətlərə görə bağlılığı olan, birgə yaşayan, ümumi ev təsərrüfatına malik şəxslər və yaxud tənha yaşayan şəxslər ünvanlı dövlət sosial yardımı məqsədləri üçün ailə kimi qəbul edilir.

Sosial yardımın məbləği ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasında yaranan fərq məbləğində hesablanır. Ailənin orta aylıq gəlirinin hesablanması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Sosial yardım onu almaq üçün müraciət edilən ayın 1-dən etibarən 1 il müddətinə təyin olunur. Sosial yardım ayda bir dəfə aztəminatlı ailənin təmsilçisinin adına olan kart hesabına mərkəzləşdirilmiş şəkildə tam məbləğdə və nağdsız qaydada ödənilir".

**Söylü Ağazadə**



# Yaşamaq üçün yorulmağa ehtiyac var?

"21-ci əsrdə süni zəka, kompüterləşmə, internet, sosial şəbəkələr, robotlaşma və avtomatlaşma getdiyi bir vaxtda, mexaniki işə az enerji sərf edilən zamanda insanların yorğun olub, işdə yorulması bəhanələrini heç cür qəbul edə bilmirəm". Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, Prezident təqaüdçüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.

O bildirib ki, yorğunluqla sosial-psixoloji iş stressini fərqləndirmək lazımdır: "Əgər bir insan ali məktəbdə təhsil alan zaman, yaxud işdə, xidmətdə və sair fəaliyyət növlərinə cəlb olunan zaman özünü yorğun hiss edirsə, bu artıq təhsil, iş stressi deməkdir. Bu stressin olmaması üçün dünyanın aparıcı ölkələrinin beyin mərkəzləri, sağlamlıqla bağlı olan tibb mərkəzləri müxtəlif texnologiyalar və təkliflərlə tez-tez çıxış edirlər. Sonuncu dəfə təklif olundu və bir çox ölkələrdə bu, reallaşdırılır. Həftəlik dörd günlük iş rejimi müəyyən olunur. Yaxud da, Azərbaycanda da kişilərə və ailəyə qulluq etmək üçün qadınlara imkan yaratmaqdan ötrü səhər bir saat gec, axşam da bir saat tez işə getməklə bağlı mənim də təklif edib dəstəklədiyim təklif var.

Universal bir fikir var ki, yaxşı işləmək, yorğun olmamaq üçün birinci növbədə öz işini sevməlisən, ikinci növbədə yaxşı istirahət etməlisən. Bu, həftəsonu öz istirahətini faydalı, ruhunun mənəvi və psixoloji rahatlığını təmin edən istirahət növləri ilə həftəsonunu gözəlləşdirməklə bağlıdır. Üçüncüsü, illik məzuniyyəti və bayram günlərini mütləq ailə üzvləri, doğmalar ilə səmərəli təşkil etmək lazımdır. Məhz buna görədir ki, daxili və xarici turizm səyahətləri kimi istirahət növləri, aktiv istirahət formaları dünyanın hər yerində inkişaf edir. Bəzi xalqlarda bu, fərqlidir. Məsələn, Yaponiyada daha çox sakit, ailə ilə, yaxud tək meşə, dağlarda, təbiət qoynunda ekoloji və kənd turizminin imkanlarından yararlanmaqla istirahətə meyl göstərirlər. Onlar hətta 5-ci gün ailələri ilə maşınla, yaxud daha çox velosipedlə, piyada müxtəlif yerlərə gedirlər. Amma Avropa və Amerikada daha aktiv idman yarışları, pikniklərdə istirahəti təşkil etməklə nail olmağa çalışırlar.

Azərbaycan isə bir qədər fərqlidir. Bizdə istirahət deyəndə kabab yemək, toyda, qonaqlıqda iştirak etmək, çayxanada vaxtını öldürməyə, çörək almağa gedəndə ictimai nəqliyyatdan, minik maşınından istifadə etməyə meyillidirlər. İnsanlar piyada getmirlər, fiziki hərəkətlərlə sağlam olmağa meyl göstərmirlər. Ət, ağır, yağlı yeməklərə meyl göstərirlər. Bu da istirahət günü, həm də iş günü insanı yorğun edir. Üstəlik bizdə ictimai nəqliyyatda problemlərin yaranması, taksi ilə bərbad islahatların aparılması, şəhərin çirkli havası, iş yerlərinin məhdud, məvaciblərin az olması, insanların bir-birini az qala yeməsi, iş yerlərində böyük problemlər, iş saatından artıq işçilərin işə cəlb edilməsi, kollektivdə sağlam ruhun olmaması insanları stress altına atır. İnsanlar da elə bilirlər ki, yorğundurlar. Bunu yatmaqla, evdə sosial şəbəkələrə daxil olmaqla əvəzləmək, aradan qaldırmaq istəyirlər. Bu da çox bərbad nəticələr verir. İnsanların böyük əksəriyyəti həm psixoloji cəhətdən, həm sağlamlıq, mənəvi cəhətdən, həm də sinir xəstəliyinə, ürək-damar xəstəliyinə tutulmaqla stressi xəstəliyə çevirməli olurlar. Bunun qarşısını almaq üçün dünyada qəbul olunan həmin universal vasitələrdən istifadə etmək lazımdır. Yaxud Azərbaycanın milli-mənəvi dəyərlərində var ki, qonşulara axşam gəzintisinə getmək, qohum-əqrəbaya yoluxmaq, rayonlara səyahət etmək, doğma kəndlərə getmək, hər beşinci gün qəbirstanlığa gedib ölüləri üçün Yasin oxutmaq, hərəkət etmək, xəstələri yoxlamaq, qocalara kömək etmək, ağac əkmək, onlara qulluq etmək, yaşadığın ərazini sahmana salmaq, insanlarla axşam parkda görüşlər təşkil etmək, çayxanalara gedib nərd yarışları, stadionlara gedib ailəlikcə futbol, voleybol oynamaq, qaçmaq kimi idman yarışları təşkil etmək olar. Əgər fiziki hərəkətlərlə məşğul olsanız, rahat yata bilərsiniz. Əksinə bizdə başqalarının arxasınca danışmaq kimi problemlərlə öz ailəsinin üzvlərini də stress içində yaşadırlar".

"Stressi nə evdən işə, nə də işdən evə gətirmək düzgün deyil. İctimai nəqliyyatda baş verən hadisələrin əksəriyyəti yer üstündə olur. Yaşlı qadınlar ağır işdən gələn cavanlara reaksiya göstərirlər, cavanlar bunu qəbul etmirlər. Bu da konfliktlər yaradır. Cavanlar qadına deyə bilmədiyini sürücüyə, yaxud da, məhlədə dostlarına deyib dalaşırlar. Bütün bunları nəzərə alıb dövlət səviyyəsində standartlar etmək lazımdır. Biz də 4 günlük iş rejiminə keçməliyik. Biz də qadınların işə bir saat gec gəlib və bir saat tez getməsini nəzərə almalıyıq. Bizim qadınların çoxu kənd yerlərində yaşayırlar, şəhər mərkəzinə işə gəlirlər. Geri dönəndə avtobus olmur, evə gedəndə də yemək hazırlamalıdırlar. Səhər ailə üzvlərini yola salmalıdırlar, paltarları yuyub, ütüləyib, evi təmizləməlidirlər. Bu qədər yüklədiyimiz qadınları biz hələ işdə də yükləyirik. Əlbəttə ki, onlar yorğun olarlar. Yorğun olan insan isə heç vaxt normal işləyə bilməz. Buna görə də biz kompleks halda bu məsələyə baxmalıyıq. Qanunvericilik səviyyəsində bu məsələləri sahmana salmağa çalışmalıyıq. Biz öz vətəndaşlarımızın işə sevinclə getməyi, evə qayıdanda doğmaları ilə yorğunluğunu, stressini aparmaq üçün müsbət enerjili istirahətini qurmağı təklif edə bilərik" - deyə o, əlavə edib.

**S. Ağazadə**

# "Onlar lobbiçiliklə birlikdə informasiya müharibəsində də çox güclüdürlər"

*Politoloq Cümşüd Nuriyevin SİA-ya müsahibəsini təqdim edirik:*

**Dünən və əvvəlki günlər İsraildəki qərargahın və strateji əhəmiyyətli yerlərin raket hücumları ilə vurulmasının şahidi olduq. Deyilənə görə HƏMAS indiyədək istifadə etmədiyi raketlər atıb. Demək olarmı ki, "Dəmir Qübbə" əvvəlki qədər güclü deyil?**

- Son 76 ildə yəni 1948-ci ildə İsrail yaranandan bəri İsrail-Fələstin münaqişəsi var. İsrail ilk yarananda indikindən daha çox kiçik idi. Onlar çox ağıllı taktika işlədərək fələstinlilərin torpaqlarını pulla aldı. Fələstinlilər çox gec ayıldı. Mübarizəyə başlasalar da bu işə yaramadı. Bu gün isə Fələstin torpaqlarının böyük bir hissəsi işğalda olması ilə birgə qalan torpaqlarda da hakimiyyət iki hissədən (HƏMAS idarəsində olan Qəzza ətrafı və Mahmud Abbas idarəsində olan digər vilayətlər) ibarətdir.

Bu qarşıdurmada Ərəb dövlətləri və ABŞ-ın da maraqları var. İran isə birbaşa HƏMASI qızışdırır və onu silahlandırır. İranın pərdə arxasında qərblə nə etdiyini də görmək mümkündür. Amma İsrail ərazisinə raketlərin düşməsinə qəsdən icazə verib. Onlar bu yolla özlərini aciz və acınacaqlı göstərməyə çalışır. Guya deməyə çalışırlar ki, ""Dəmir Qübbə" öz gücünü itirib və bizə dəstək lazımdır". Onlar lobbiçiliklə birlikdə informasiya müharibəsində də çox güclüdürlər. Beləliklə dünən və əvvəlki gün olanlar mediaya oynanan rol idi.

***- İsrail-Fələstin münaqişəsi şərqə yayılır. Dünən Livandan da müharibəyə qoşulacağı barədə açıqlamalar eşitdik. Əvvəlki Ərəb-İsrail müharibəsini də Livan başlatmışdı. Sizcə, belə bir müharibə yarana bilər. Bəs bu konfliktin qlobal müharibəyə çevrilmə ehtimalı nə qədərdir?***



- Livan çox güclü dövlət deyil. Onlarda çoxsaylı erməni və xristian əhali də var. Buna görə də onlar daima fitil statusundadır. Livan əvvəllər də olduğu kimi vəziyyəti gərginləşdirib, araqarışdıran rolu oynayır. Ümumilikdə isə Livanın müharibəyə qatılması həlledici əhəmiyyət daşımır.

***- Bildiyimiz kimi, Bayden administrasiyası son günlərini yaşayır. Amerika tərəfi isə aylar öncəki qədər effektiv deyil. Sizcə, Fars-Ərəb liqası bundan istifadə edib münaqişəyə atıla bilərmi?***

- ABŞ-də demokratlar hakimiyyətdə olduqca müharibələr və işğallar daima olub. Buna görə də İsraildə Trampın seçilməyini istəmirlər. Onlar vaxt var ikən Baydendən daha çox istifadə etməyə çalışırlar. Fars-ərəb liqasına gəlincə isə belə bir şey yoxdur. Nə qədər ki, farslar var belə bir birlik yaranmayacaq.

**Zərdüşt Quluzadə**

# “Əgər nəsə olarsa, təbii ki, Cənubi Qafqaza birbaşa təsir edəcək”

## Dmitri Solonnikov Yaxın Şərqdə müharibənin kimə və niyə lazım olduğunu açıqladı

***Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov "Moskva-Baku" portalına müsahibəsində İsrail və İran arasında gərginliyin müharibəyə çevriləcəyi təqdirdə Cənubi Qafqazı nə gözlədiyini izah edib. Həmçinin, o, bu müharibənin kimə və niyə lazım olduğunu da açıqlayıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

***-Həmas Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin Tehranda qətlə yetirilməsindən sonra İran hakimiyyəti bu terror aktında yəhudi dövlətinin əli olduğunu düşünərək İsraili cavab zərbəsi ilə hədələyib. Regionda artan gərginlik məsələləri çox güman ki,***






düşmənçilik etmək arzusu yoxdur. Eyni zamanda, imic baxımından o, HƏMAS Siyasi Bürosunun rəhbərinin öz ərazisində qətlə yetirilməsinə cavab verməyə bilməzdi. İran İsrailə cavab addımı atacağı barədə əvvəlcədən xəbərdarlıq edib. Xatırladığımız kimi, bu vəziyyət bundan əvvəl də, nisbətən yaxınlarda, bu ilin aprelində İsrail İranın Suriyadakı konsulluğuna hücum edəndə baş vermişdi. Tehran güzgü kimi cavab verməli oldu. Və o, pilotsuz təyyarələr və raketlərlə İsrail ərazisinə kütləvi hücuma keçdi. İnanıram ki, Tehran gələcəkdə də bu taktikaya sadiq qalacaq. İsrailin müharibəyə təhrik etmək cəhdlərinə yüksək səslə hədələyici ritorika ilə cavab verir, mülki əhali arasında tələfatlardan, qurbanlardan qaçmağa çalışaraq cərrahi dəqiqliklə cavab zərbələri endirir.

İrana müharibə lazım deyil. Əslində, heç kimə, o cümlədən ABŞ-a da. Demokratlara prezident seçkiləri öncəsi yeni müharibə lazım deyil. Və İsrailin böyük müharibəyə başlamasının qarşısını almağa çalışırlar. Müharibə başlasa, Kamala Harris İsrailin, yoxsa ərəb dünyasının tərəfində olmağı seçməli olacaq, bu onun üçün çox





***Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu İslam Respublikasına səfəri zamanı müzakirə edilib və o, daha sonra Azərbaycana gedib. Onsuz da təlatümlü olan bu regionda bizi nə gözləyir?***

- Rusiyanın bu gün İranla kifayət qədər yaxın strateji əlaqələri var. Biz müxtəlif sahələrdə intensiv qarşılıqlı fəaliyyət göstəririk. Eləcə də bizim strateji tərəfdaşımız və müttəfiqimiz olan Azərbaycanla olduğu kimi. Təbii ki, həm Rusiya, həm də Azərbaycan İsraillə İran arasında ciddi gərginliyin yeni dalğasından narahat olmaya bilməz. Azərbaycan üçün bu, birbaşa təhlükədir, çünki İran onun coğrafi qonşusudur. Və Allah eləməsin, müharibə başlasa, Cənubi Qafqaza çox ağır zərbə dəyəcək. Bu, Azərbaycanla həmsərhəd olan Rusiyaya da təsir edəcək. Bu, Xəzər regionuna və digər yaxın regionlara və müxtəlif qlobal oyunçulara təsir edəcək. Rusiya ilə Qərb arasında münaqişə fonunda əlavə cəbhə bölgədə çox böyük çətinliklər yaradacaq.

Tehranda və Bakıda Şoyqu İsrail və İran arasında artan gərginliklə bağlı Rusiyanın mövqeyini səsləndirib. İran və Azərbaycanın hakimiyyət orqanları da öz növbəsində potensial eskalasiya zamanı öz mövqelərini və hərəkətlərini təqdim ediblər.

Aydındır ki, Azərbaycan bir neçə yanğın arasında qalmış vəziyyətdədir. Bakının ona silah satan İsraillə tarixən yaxşı münasibətləri olub, Azərbaycanda yəhudilər yaşayır və deməliyəm ki, respublikanın hakimiyyətinin multikultural siyasəti sayəsində çox rahat yaşayırlar. Digər tərəfdən, Bakı ənənəvi olaraq Fələstin-İsrail məsələsinin iki dövlət sxemi əsasında ədalətli həllinin tərəfdarıdır. Həmçinin Azərbaycan bu gün ərəb ölkələri ilə intensiv əlaqələr qurur. Təbii ki, Azərbaycan tarixən kifayət qədər çətin münasibətləri olan İranla konstruktiv münasibətlərin tərəfdarıdır. Bu, geosiyasi maraqların belə mürəkkəb dolaşıqlığıdır.

Bu gün Azərbaycan Cənubi Qafqazın və Xəzər regionunun ən güclü və əsas dövlətlərindən biridir. Və onun Yaxın Şərqdəki vəziyyətlə bağlı mövqeyi problemli məsələlərin sülh yolu ilə həllidir. Bakı heç kimin tərəfini tutmayacaq. O, ehtiyatlı olacaq. Azərbaycan Prezidenti parlaq diplomatdır, onun hər bir qərarı diqqətlə yoxlanılır. O, Azərbaycanın necə çətin və strateji regionda olduğunu çox gözəl anlayır. Məsələn, bu gün Azərbaycan üçün İsrailin Fələstindən daha çox dost və ya daha az dost olduğunu söyləmək, belə kateqoriyalarda mübahisə etməyə dəyməz. Biz görürük ki, məsələn, Türkiyə İsrailə qarşı necə çox sərt bəyanatlar verir, hansı qarşılıqlı təhdidlər səsləndirilir. Rusiya üçün İsrail bu gün Qərbin tərəfdaşını təmsil edir. Azərbaycan isə bunun fonunda necə çətin düyünün bağlandığını anlayır və sırf öz milli maraqlarını müdafiə edir. Və o, həmişə dünyanın istənilən yerində sülhü müdafiə etməyə çalışır. Həm Rusiya, həm də Azərbaycan çox gözəl başa düşürlər ki, Cənubi Qafqaz, Xəzər regionu və Yaxın Şərq sərhədində eskalasiyaya yol verməmək olmaz.

Sergey Şoyqunu Bakıda qəbul edən Azərbaycan Prezidenti bir daha vurğuladı ki, bu gün iki ölkə arasındakı münasibətlər qonşular üçün nümunə ola bilər. Əliyevin də qeyd etdiyi kimi, bu, çox dəyərlidir. Bundan əlavə, Azərbaycan dövlətinin başçısı bir daha vurğuladı ki, Azərbaycan-Rusiya münasibətləri Cənubi Qafqazda və daha geniş miqyasda təhlükəsizliyin möhkəmləndirilməsi amilidir. O, qeyd edib ki, Bakı ilə Moskva təhlükəsizlik sahəsində daha sıx əməkdaşlıq etməlidir. Ona görə də şübhə doğurmur ki, Vladimir Putin Sergey Şoyqunu bölgəyə narahatlıq doğuran proseslər fonunda Bakıdakı vəziyyətlə bağlı qeydləri müqayisə etmək, həmçinin müəyyən addımları müzakirə etmək üçün göndərib. Tamamilə aydındır ki, Moskva və Bakı İranla İsrail arasında vəziyyətin inkişafı ilə bağlı eyni istiqamətə baxır. Və onlar hərbi nəticənin qarşısını almaq üçün öz imkanları daxilində çalışacaqlar. Bakıda Şoyqu Təhlükəsizlik Şurasının katibi Ramil Usubovla da görüşüb. Tərəflər Qərbin regiondakı vəziyyətə müdaxilə cəhdlərini müzakirə ediblər ki, bu da şübhəsiz ki, Transqafqazda təhlükəsizliyi pozmaq və sabitliyin pozulmasına səbəb olmaq cəhdidir.

***-Əgər ən pis ssenarini fərz etsək və vəziyyət İranla İsrail arasında gərginlik müharibə ilə nəticələnsə, Cənubi Qafqazın taleyi necə olacaq?***

-Mən əminəm ki, İranın İsraillə çətin seçimdir ki, bu da reytinqinin aşağı düşməsinə səbəb olacaq. İsrailin ənənəvi lobbiçiləri bir seçim olarsa, Fələstin tərəfdarları isə başqa seçim olarsa, ona qarşı çıxacaqlar. O, tarazlığı davam etdirməyə çalışır və gələcəkdə də bunu etməyə çalışacaq. Və ona müharibə lazım deyil. Bundan əlavə, ABŞ bütün səylərini və diqqətini Ukraynaya yardıma yönəltməyə çalışır.

Bu gün yalnız Benyamin Netanyahuya şəxsən baş nazir postunu qorumaq üçün müharibə lazımdır. Qalan heç kəs bunda maraqlı deyil. Yaxın Şərqdə böyük müharibə heç kimə lazım deyil, əgər nəsə olarsa, təbii ki, Cənubi Qafqaza birbaşa təsir edəcək. Mümkün eskalasiyanın həcmini proqnozlaşdırmaq çətindir. İsrailin nüvə silahı var. Döyüşlər çoxlu sayda qaçqın deməkdir. Və yaxınlıqdakı bölgələrə axışacaqlar. O zaman biz regionda sülh və təhlükəsizliyi unutmalı olacağıq. Və Qərb kimi bütün maraqlı tərəflər təbii ki, bundan yararlanacaqlar. Ancaq inanıram ki, ən pis ssenari hələ ki mümkün deyil.

***Tərcümə - Elçin Bayramlı***

***Oxucumuz Şəbnəm Süleymanova redaksiyamıza zəng edərək Müəllimlərin İşə Qəbul imtahanından (MİQ) yüksək bal yığmasına rəğmən Bakıdakı məktəblərdə vakant yer olmadığını, işlə təmin olunmadığından şikayətlənir. Oxucumuzun dedikləri: "Bir neçə ildir ki, imtahana girirəm, 65, 70, 75 bal yığıram, amma vakant yer seçimində Bakı məktəblərinə qəbul ola bilmirəm, sistem seçimimi uğursuz hesab edir. Bunu balımın azlığı ilə əlaqələndirirdilər. Amma bu il MİQ-dən 85 bal topladım, yenə Bakıdakı məktəblərə qəbul alınmır. Mənim ailəm Bakıda yaşayır, burada işləmək məcburiyyətindəyəm, amma bu qədər balımın olmasına rəğmən iş tapmıram. Axı vakant yerlər çoxdur, sertifikasiyadan sonra vakant yerlərin hamısı çıxarılmadı müsabiqəyə".***

# Paytaxtda müəllim işləmək üçün...





Qeyd edək ki, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən bir neçə gün öncə bildirilmişdi ki, müəllimlərin işə qəbuluna dair müsabiqənin vakansiya seçimi mərhələsində 10500 vakant yer təqdim edilib. Lakin sertifikasiyadan sonra ümumilikdə 4300-dən çox müəllimin müqaviləsinə xitam verildiyi üçün vakant yerin azlığı narahatlıq doğurur. Agentliyinin Ümumi təhsilin təşkili şöbəsinin müdir müavini Nurlan İsmayılbəyli bu məsələni şərh edərkən ölkə üzrə hazırda ehtiyac olduğundan daha çox müəllimin ümumi təhsil müəssisələrində çalışdığını və fənn müəllimlərin dərs saatlarının az olduğunu qeyd etmişdi. Buna görə də hər işdən çıxarılan müəllimin yerinə mütləq başqa müəllim işə götürülməyə bilər. Bunun yerinə, məktəbdə fəaliyyət göstərən aidiyyatı fənn müəllimlərinin dərs saatları artırılacaq.

Həmçinin, bu il ibtidai sinif və Azərbaycan dili fənni üzrə vakansiyaların sayı ötən illə müqayisədə daha çoxdur. Bunun başlıca səbəbi müəllimlərin sertifikatlaşdırması prosesindən kəsilən müəllimlərin bu iki ixtisasdan olmasıdır. Bu il ibtidai sinif üzrə ümumilikdə 712 vakansiya, Azərbaycan dili və ədəbiyyatı fənni üzrə isə 563 vakansiya təqdim olunub.

Məsələni tanınmış təhsil eksperti Ramin Nurəliyevlə müzakirə etdik. Ekspert deyir ki, MİQ imtahanı ilə bağlı fərqli yanaşmalar var: "Əslində məktəb rəhbərlikləri boş olan yerləri - istər ümumi olaraq boş olan yer olsun, istərsə də sertifikasiyadan kəsilmiş müəllimlərin, müqavizəlisnəi xitam verilmiş müəllimlərin boş qalan yerləri olsun - o vakant yerləri nazirliyə təqdim etməlidir, həmin boşalmış yerlər də müfafiq olaraq MİQ imtahanında iştirak etmiş müəllimlərin seçimi üçün vakansiyaya çıxarılmalıdır. Mənim bildiyim qədər Agentlik sertifikasiyadan kəsilən müəllimlərin boş qalan yerlərinin müsabiqəyə buraxılacağını qeyd etmişdi. Amma o yerlərin nə qədərinin müsabiqəyə çıxarılması da əlbəttə ki, çox önəmlidir. Onsuz da o sertifikasiyanı nazirlik keçirib, nəticələri yaxşı olmayan müəllimlərin əmək müqaviləsinə xitam verilib. Ona görə də hansı məktəbdə, hansı ixtisas üzrə neçə yerin boş olduğunu çox aydın bilirlər. Deməli, həmin vakansiyalar MİQ iştirakçılarının seçiminə təqdim edilməlidir və edilir də. Çünki, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi bununla bağlı açıqlama vermişdi".

Ekspret bildirir ki, bəzi paytaxt məktəblərində "təcrübəli" məktəb rəhbərləri vakansiyaları gizlədir, nazirliyə təqdim etmirlər və bu da vakansiya sayının azlığına gətirib çıxarır və keçid ballarının artmasına gətirib çıxarır: "Biz bilirik ki, keçid balları ancaq və ancaq müsabiqədə iştirak edən, seçim mərhələsinə buraxılan vakantların imtahanda topladığı ballara əsasən formalaşır. Yəni, keçən ilin balları keçən ilki müsabiqənin ballarına əsasən formalaşır, bu ilin balları da bu ilin müzabiqə ballarına əsasən. Misal üçün, ötən il 80 bal olan bir Bakı məktəbi vakansiyası bu il 80 bal olmaya bilər, 75 də ola bilər. 85 də, 95 də. Dediyim kimi, bu bu ilki imtahan ballarına görə təyin edilib. Burada əsas məsələ həmin vakansiyaya müraciət edən vakantların topladığı ballar əsasdır. Ola bilər ki, Sabunçu rayonunun hər hansı bir məktəbinə müraciət sayı az olsun, keçid balı da azalsın. Yaxud da, həmin məktəbə yüksək bal toplayanlar müraciət etsin, müraciət sayı çoxluq təşkil eləsin, həmin yerin müzabiqə balı da beləcə artsın. Təkrar edirəm,



bunun tənzimlənməsi müsabiqədə iştirak edənlərin topladığı bala əsasən hər il üçün ayrılıqda formalaşır".

Ramin Nurəliyevin sözlərinə görə, builki plan yerlərindəki artım, eyni zamanda boşalmış, müqaviləsinə xitam verilmiş müəllimlərdən boşalan yerlərin müsabiqəyə təqdim edilməsi keçid ballarına təsir göstərəcək: "Bunu indidən demək, xüsusilə Bakı məktəbləri üçün demək çətindir. Çünki bildiyimiz kimi, Bakı məktəblərində müsabiqə şərtləri bir az çətin olur, yəni keçid balı yüksək olur. Amma regional məktəblərdə bu problemlər olmur, keçid balı da az olur. Ümidvaram ki, bu ilki müsabiqədə



iştirak edən vakantların çoxluğu keçid ballarının aşağı düşməsinə təsir edər. Müsabiqədən keçən müəllimlərin sayı, topladıqları ballar önəmlidir bu məsələdə. Əgər topladıqları ballar yüksəkdirsə, deməli, builki müsabiqə şərtləri çətin olacaq və ballar qalxacaq.

Qeyd edək ki, müəllim kimi işə başlamaq üçün həmin ixtisas sahibləri 4 mərhələdən keçməlidir: elektron ərizədəki göstəricilərin yoxlanılması, test imtahanı, vakant yerlərin seçilməsi və müsahibə. 2024-2025-ci tədris ili üçün test imtahanının nəticələrində keçid balı 40 bal götürüldü. Test imtahanında ümumtəhsil proqramı üzrə minimun 34 bal və tədris metodikası üzrə minimum 6 bal olmaqla, ümumi 40 bal və daha yüksək nəticə göstərən namizədlər vakant yerlərin seçiminə buraxılır.

Test imtahanında hər bir namizədə onun ixtisası üzrə ümumi təhsil müəssisələrinin fənn proqramlarına aid 40 sual, tədris metodikası və təlim strategiyalarına aid 20 sual təqdim edilir. Bu mərhələdə ixtisas üzrə düzgün cavablandırılan bir sual 2 bal, tədris metodikası və təlim strategiyaları üzrə isə 1 bal olaraq hesablanır. Ümumilikdə cavablara 100 ballıq qiymətləndirmə sistemi tətbiq edilir. Qaydalara əsasən, ixtisas üzrə 1 səhv cavablandırılmış sual -0,5 bal, tədris metodikası üzrə isə -0,25 bal şəklində hesablanaraq namizədin imtahan nəticəsindən çıxılır.

***Lalə Mehralı***

# B İ L D İ R İ Ş

**Hörmətli Səhmdar!**

"BETON MƏMULATLARI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ nəzərinizə çatdırır ki, "21" sentyabr 2024-cü il tarixində, saat 15:00-da Cəmiyyətin hüquqi və faktiki ünvanı olan Bakı şəhəri, Nərimanov rayonu, Akademik Ziya Bünyadov prospekti 156E ünvanında yerləşən inzibati binasında Cəmiyyətin səhmdarlarının Ümumi Yığıncağı keçiriləcəkdir. Ümumi Yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilməklə, Yığıncaqda həmin məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur:

1. "Beton Məmulatları" Açıq Səhmdar Cəmiyyətinin 2023-cü il üçün illik maliyyə təsərrüfatı fəaliyyətinin müzakirəsi (2023-cü il üzrə maliyyə hesabatının təsdiq edilməsi) barədə;
2. "Beton Məmulatları" Açıq Səhmdar Cəmiyyətinin 2023-cü maliyyə təsərrüfatı ilinin yekunlarına görə dividendlərin səhmdarlara ödənilməsi barədə;
3. Yığıncağın gündəliyində duran digər cari məsələlərin müzakirə edilməsi barədə.

Səhmdarlardan və ya onları Ümumi Yığıncaqda səlahiyyətli nümayəndə kimi təmsil edən şəxslərdən Yığıncaqda iştirak etmələri üçün aşağıdakı sənədlərin təqdim edilməsi xahiş olunur.

1. Səhmdarın özü iştirak etdikdə onun şəxsiyyətini təsdiq edən sənəd;
2. Səhmdar birbaşa özü deyil, nümayəndəsi vasitəsilə təmsil olunduqda təmsil edənin şəxsiyyətini təsdiq edən sənəd və ona səhmdar tərəfindən Ümumi Yığıncaqda təmsiletmə səlahiyyəti ilə bağlı verilmiş notarial qaydada təsdiq edilmiş etibarnamə;
3. Səhmdarın adına olan cari bank hesabı məlumatlarına dair sənəd (cari hesab barədə bank rekvizitlərinin əks olunduğu sənəd) - hesablanmış dividend məbləğinin hesaba köçürülməsi üçün.

QEYD 1: Səhmdarların Ümumi Yığıncağına gələn səhmdar və ya onun etibarnamə üzrə səlahiyyətli nümayəndəsi müvafiq olaraq şəxsiyyət vəsiqəsinin və nümayəndəyə verilmiş etibarnamənin əslini təqdim etməlidir.

QEYD 2: Bankda adına hesab olmayan səhmdar ilk öncə istədiyi bankda öz adına cari hesab açmalı və bank tərəfindən ona verilmiş bank rekvizitlərinə dair sənədi Cəmiyyətə təqdim etməlidir.

***Hörmətlə, "BETON MƏMULATLARI" ASC-nin İdarə Heyətinin sədri***

# Bəşəriyyətə qarşı demonkratik atom bombaları



Naqasaki atom partlayışından əvvəl və sonra


Hiroşima bombalanmadan əvvəl


Hiroşima bombalanmadan sonra



***1945-ci ilin avqustun 6-da və 9-da Yaponiyanın Hiroşima və Naqasaki şəhərlərinin atom bombardmanı bəşər tarixində nüvə silahının hərbi məqsədlə tətbiq olunduğu ilk və yeganə dəhşətli nümunədir. SSRİ tərəfindən faşist Almaniyasının məğlub edilməsi və kapitulyasiya aktı imzalandıqdan 3 ay sonra sonra ABŞ dünyada hegemonluğunu və liderliyini təmin etmək üçün yenicə yaratdığı atom bombalarını Almaniyanın müttəfiqi Yaponiyaya atmağa qərar verdi. Halbuki, 2-ci dünya müharibəsi demək olar ki, bitmişdi və buna heç bir ehtiyac yox idi. Yaponiya təkbaşına dünya müharibəsini davam etdirəcək deyildi. Üstəlik, atom bombaları Yaponiyanın hərbi bazalarını məhv etməyə yox, yapon xalqını məhv etmək üçün yüz minlərlə mülki əhalinin yaşadığı şəhərlərə atıldı.***

1945-ci il 6 avqust tarixində amerikan B-29 bombardmançı təyyarəsi "Balaca oğlan" adı qoyulmuş atom bombasını Hiroşimaya atdı. 13-18 kiloton trotilə bərabər bomba şəhəri və oun on minlərlə sakinini məhv etdi. Bu, bəşər tarixində görünməmiş kütləvi qırğın idi. Dünya bu dəhşətli şokdan ayılmamış növbəti faciə təşkil edildi. Avqustun 9-da 21 kiloton trotilə ekvivalent olan "Gonbul" adlandırılan atom bombası amerikan B-29 bombardman təyyarəsi tərəfindən Naqasaki şəhərinə atıldı.

Hiroşimada həlak olanların sayı 150 min arası, Naqasakidə isə 100 minə yaxın oldu. İnsanlar buxarlanıb yoxa çıxdılar, ətrafda hər şey əriyib toza döndü, hər yer radisiya ilə zəhərləndi. Bəşər tarixində belə dəhşət görünməmişdi və hələ də görünməyib.

Hədəflərin seçimi üzrə Komitə hədəf kimi Kioto, Hiroşima (hərbi baza), İokoqama (hərbi sənaye mərkəzi), Kokura (iri hərbi arsenal mərkəzi) və Niiqatada (maşınqayırma mərkəzi və hərbi liman) atom silahının tətbiqini irəli sürmüşdü. Lakin Komitə bu silahın hərbi məqsədlə tətbiqi ideyasını təkzib etdi. Belə ki, geniş şəhər zonası ilə əhatələnməmiş ərazidə bombalanmanın tətbiqinin rezonansı daha az olardı. Daha çox insanın məhv edilməsi daha çox qlobal qorxunu təmin edərdi və ABŞ-ın dünyada hegemonluğunu təmin edərdi.

Məsələn, Komitədə Kiotonun xeyrinə bildirmişdi ki, Kiotodan fərqli olaraq Hiroşimanın yerləşmə mövqeyi təpələrə yaxın olduğundan partlayışın gücünü artıra bilərdi.

Hiroşima 81 körpü vasitəsilə 6 adanın birləşdiyi dəniz səviyyəsindən bir az hündürdə yerləşən hamar ərazidə yerləşirdi. Şəhərin əhalisinin sayı 300 000 civarında idi.

Partlayışın episentrinə yaxın olan şəxslər anındaca ölmüş və onların bədəni hissələrə ayrılaraq ətrafa dağılmışdı. Həmin vaxt havada uçan quşlar yanmış, quru yanan materiallar isə (məsələn, kağız) partlayışın episentrinə 2 km uzaqda belə yanmışdı. İşıq şüalanması paltarı yandıraraq onun qara rəsmini bədənlərdə həkk etdi. İnsan siluetləri isə divarda qaldı. Evdən kənarda olan insanları isə işıq parıltısı kor etdi. Episentrin yaxınlığında olan hər şeyi partlayış dalğası dərhal yox etmişdi. Episentrdən 800 m məsafədə yerləşən 90 % insan bir neçə dəqiqədən sonra ölmüşdü.

Partlayış dalğası 20 km-ə qədər məsafədə yerləşən pəncərələri məhv etmişdi. Şəhərdə eyni vaxtda çoxlu sayda kiçik yanğınlar yaranmış və yaranmış güclü külək episentrə doğru istiqamət almışdı. Alov şəhərin 11 km?-dən çox hissəsini əhatə eləmişdi.

Partlayış vaxtı 80 mindən artıq insan dərhal öldü. Tezliklə sağ qalanlar arasında ölənlərin sayı artmağa başladı. Şüalanma xəstəliyindən ölənlərin sayı partlayışdan 3-4 həftə sonra pik nöqtəyə çatdı. 5 il ərzində partlayışdan sonra yaranan xərçəng və digər uzunmüddətli nəticələrdən sonra ölənlərin sayı 200 000-i keçmişdi.

Naqasaki iki çayın axdığı iki vadidə yerləşirdi. İkinci dünya müharibəsi zamanı şəhər iri dəniz limanı olmaqla yanaşı, həm də sənaye mərkəzi kimi tanınırdı. Bombalanma zamanı şəhərdə 200 minə yaxın əhalinin olması bildirilmişdi.

Naqasaki prefekturasının hesabatına əsasən, episentrdən 1 km məsafədə yerləşən insan və heyvanlar həmin an öldü. 2 km radiusda yerləşən bütün evlər yandı. 14 min bina dağılmışdı.

Ölənlərin sayı 80 minə qədər idi. 5 ildən sonra isə partlayış nəticəsində xərçəng xəstəliyinə yoluxaraq ölənlərin sayı 140 min insan idi.

Rəsmi yapon mənbələrində atom zərbələrindən ölənlərin ümumi sayının yarım milyona yaxın olduğu göstərilir.

80 ilə yaxın vaxt keçib, hələ də yüz minlərlə insan atom şüalanmasından əziyyət çəkir. 10 il əvvəl Yaponiyanın verdiyi rəsmi məlumatda Hiroşima və Naqasakiyə atılan atom bombalarından sonra 201 779 nəfərin atom bombalanmasından yaranan xəstəliklərdən əziyyət çəkməsi göstərilib. Bu rəqəm radiasiyanın təsirinə məruz qalmış qadınlardan dünyaya gələn körpələri də özündə birləşdirir.

Dünya 2 dəhşətli nüvə faicəsini yaşamış, yüz minlərlə insan buxarlanmışdı. Lakin ABŞ hökuməti bunlarla kifayətlənmək fikrində deyildi. Daha bir atom bombasının avqustun ortalarında istifadəyə hazır olacağını gözləyirdi. Ondan sonra sentyabr və oktyabr aylarında daha 3-nün də atılmasını planlaşdırmışdı.

Bax belə. Bəşəriyyətə qarşı dəhşətli nüvə silahı tətbiq edən şeytani dövlətin rəhbərləri qandan doymurdular. Belə bir qorxunc bəşəri faciə belə onları dayandırmağa kifayət etmirdi...

2015-ci ilin 6 avqust tarixində bombalanmaların ildönümündə prezident Harri Trumenin nəvəsi Klifton Trumen Daniel bildirdi ki, "babası ömrünün sonlarına qədər Hiroşima və Naqasakiyə atılan atom bombalarının düzgün olduğunu və ABŞ-nin ondan heç vaxt bu haqda üzr istəməsini xahiş etməyəcəyini hesab edirdi".

Təyyarə poltları, əməliyyatı həyata keçirənlər, qərarı hazırlayan hərbi komandanlıq üzvləri də bundan peşman olmadıqlarını dəfələrlə bəyan ediblər. İnanmaq olmur, insan necə belə qorxunc varlığa çevrilə bilər? ABŞ-da insanları necə belə zombiyə çevirə biliblər?

Bu dövlət sonrakı dövrlərdə də dünyaya ancaq bəla, faicə, fəlakət gətirdi, onlarla ölkədə müharibələr, terrorlar, qanlı qırğınlar, müxtəlif fəlakətlər törətdilər. Bu siyasət hələ də davam edir. İndi də faşist və işğalçı erməni terror dövlətini müdafiə edərək işğala və terrora məruz qalmış Azərbaycana qarşı siyasət yürüdürlər. Və bu dövlət özünü dünyaya demokratiyanın, insan azadlığının müdafiəçisi kimi göstərir. Tarixin ironiyasına baxın!

Əsrlər, minillər keçəcək, bəşər tarixi Xirosima və Naqasaki dəhşətlərini unutmayacaq və bu terror aktları insan sivilizasiyasının üz qarası kimi qanla yazılmış səhifələrdə yaşayacaq.

***Elçin Bayramlı***

# Ermənilər “Zəngəzur dəhlizi”nin açılmasından niyə qorxurlar?

## Erməni siyasətçilər bunu az qala Ermənistan dövlətinin yox olması ilə əlaqələndirirlər...

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın bölgədə yaratdığı və beynəlxalq əhəmiyyəti ilə seçilən ən mühüm reallıqdan biri də Zəngəzur dəhlizinin bərpası ilə bağlı göstərdiyi qətiyyətdir. Vətən müharibəsindən sonra Zəngəzur dəhlizi ilə bağlı danışıqların aktuallaşmasında məqsəd bu dəhliz vasitəsilə 30 ildən artıq Ermənistanın blokadasında qalan Naxçıvan Muxtar Respublikasının Azərbaycanın digər rayonları ilə illərdən bəri ”donan” əlaqəsini, avtomobil və dəmir yollarını bərpa etmək, marşrutun beynəlxalq səviyyədə iqtisadi əhəmiyyətini artırmaqdır. Ermənistanın baş naziri Nikol Paşinyanın guya yeni təşəbbüs kimi irəli sürdüyü ”sülhün kəsişməsi”, ”erməni qovşağı” kimi bayağı ”layihə”si ilə bağlı fikirlərini daha inandırıcı, reallıq əsasında açıqlayan Prezident İlham Əliyev bildirir ki, Ermənistan 10 noyabr üçtərəfli Bəyanatındakı kommunikasiyalarla bağlı müddəanı yerinə yetirmir və faktiki olaraq öz öhdəliyinə laqeyd yanaşır: ”Ona görə bunu pərdələmək, eyni zamanda, ”Zəngəzur dəhlizi” sözünü sildirmək üçün belə bir təklif irəli sürmüşlər. Onu da bildirməliyəm ki, ”Zəngəzur dəhlizi” sözü onları çox qıcıqlandırır və mən deyəndə ki, axı dəhliz hər hansı bir ölkənin suverenliyini şübhə altına almır, - Şimal-Cənub dəhlizi var, Azərbaycan ərazisindən keçir. Bu, o demək deyil ki, bizim suverenliyimiz burada şübhə altına düşür. Şərq-Qərb dəhlizi var, - amma nədənsə Ermənistanda bu dəhliz sözünə münasibət bir az fərqlidir. Ona görə bu erməni yol kəsişməsi, ya yolayırıcı, ondan sonra bunu ”sülh yol kəsişməsi” adlandırmışlar. Amma faktiki olaraq bu, piar aksiyadan başqa bir şey deyil.











Məlumdur ki, erməniləri qorxudan əsas məsələ 200 illik fəaliyyətlərinin tarixin zibil qutusuna atılması qorxusudur. ”Zəngəzur dəhlizi”nin açılmasını onlar ona görə bu qədər ağrılı qəbul edirlər ki, bu dəhlizin açılmasından sonra başlayacaq prosseslər əslində ”Böyük Ermənistan” xülyasının sona çatması ilə nəticələnə bilər. Söhbət hər şeydən əvvəl Türkiyə və Azərbaycanla siyasi, iqtisadi və mədəni əlaqələrin bərpasından, bu əlaqələrin dərinləşməsindən gedir. Ermənilər yaxşı başa düşürlər ki, bu günə qədər əldə etdikləri hər şeyi özlərin türklərə düşmən olaraq gördükləri üçün qazanıblar. İndi isə dostluq əlaqələri yaranacaqsa, erməni ideoloqların ”Böyük Ermənistan” xülyası da özü-özündən yoxa çıxacaq. Türklə dost münasibətləri quran erməni özünün xalq olaraq geosiyasi əhəmiyyətini itirəcək. Buna görə də erməni başbilənləri hər vəchlə Türkiyə və Azərbaycanla əlaqə qurmaqdan, iqtisadi və siyasi münasibətləri sivil şəkildə yürütməkdə qaçırlar. İndi 44 günlük müharibənin yaratdığı tarixi zərurət isə bunu tələb edir. Bu üzdən ermənilər ”Zəngəzur dəhlizi”nin açılmasını tələsla qarşılayırlar.





Bu günlərdə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın Senatda ”Avropanın Gələcəyi” mövzusunda keçirilən dinləmələr zamanı səsləndirdiyi fikirlər Ermənistanda zəlzələ effekti yaradıb. Xatırladaq ki, O'Brayn çıxışı zamanı zəngin Orta Asiya ölkələrinin dünya bazarlarına Azərbaycan və Ermənistan ərazisindən quru yolla çıxmaq imkanına toxunub: ”Azərbaycan və Ermənistan ərazisindən marşrutun açılmasnı təmin edə bilsək, Orta Asiya ölkələri dünya bazarlarına çıxış əldə edəcək, Rusiya və Çindən daha az asılı olacaqlar”.

Bu açıqlamaları şərh edən Ermənistan Respublikaçılar Partiyasının sözçüsü Eduard Şarmazanov qeyd edir ki, Qərb, faktiki olaraq, İrəvandan Zəngəzur dəhlizini tələb edir: ”Paşinyanın partiyasının üzvləri, nikolçular və müxtəlif qərbçilər, sizin suverenliyiniz haradadır?”. Onun sözlərinə görə, Amerika Birləşmiş Ştatları dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O`Brayn Senatın Xarici Əlaqələr Komitəsində bildirib ki, Vaşinqton Ermənistan və Azərbaycan arasında ədalətli və davamlı sülhün bərqərar olmasına fəal kömək etməkdə davam edir: ”ABŞ-nin faktiki nümayəndəsi bəyan edir ki, Qərb Rusiyanı regiondan sıxışdırıb çıxarmalıdır və Zəngəzur vasitəsilə Azərbaycanla Ermənistanı birləşdirən yol bunun aləti olacaq. İran və ya Rusiya Qərbin regiondakı fəallığından narahatlıqla bağlı bəyanatlar verəndə, nikolçular və qərbçilər Ermənistanın suveren olduğunu xatırlayırlar. İndi Qərb faktiki olaraq açıq mətnli dəhliz tələb edir, niyə səs çıxarmırsınız?”. Baş verənlər fonunda Ermənistanda etiraflar edilir ki, bu gedişlə Zəngəzur dəhlzinin açılmasını ləngitmək mümkün olamayacaq. Ermənistanın ”zham.am” nəşri bununla bağlı yazır: ”ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Senatın Xarici Əlaqələr Komitəsində bəyan edib ki, ABŞ-nin əsas məqsədi Mərkəzi Asiya ölkələrindən dünya bazarlarına yeni quru yollarının yaradılmasıdır. Yəni ABŞ-nin yüksək rütbəli rəsmisi açıq şəkildə bəyan edir ki, Şimal-Cənub marşrutunun işləməməsi üçün ölkəsi Cənubi Qafqaz regionunda hər şeyi etməlidir. O'Braynın bəyanatı göstərir ki, ABŞ Ermənistan və Gürcüstandan keçən Şimal-Cənub marşrutunun işləməsində açıq şəkildə maraqlı deyil. Üstəlik, amerikalı rəsmi ölkəsinin sırf Ermənistan üzərindən fəaliyyət göstərəcək Zəngəzur dəhlizində maraqlı olduğunu gizlətmir. Nikol Paşinyanın Rusiyanın Ermənistanla Azərbaycan arasında regional kommunikasiya əlaqələrini açmaq səylərini niyə dayandırdığı artıq açıq şəkildə deyilir. Paşinyanın Zəngəzur dəhlizinə qarşı ”qəhrəmancasına mübarizəsi”nin əslində bir məqsədi var idi: o dəhlizə Rusiya deyil, Türkiyə nəzarət etsin. Paşinyan bunu açıq elan edə bilməz. Əvəzində O'Brayn bunu ortaya qoyur. Bundan sonra Paşinyanın ”sülh kəsişməsi”nin bütün aldadıcılığı bəlli olur. Əslində, Paşinyan Ermənistanı Türkiyə ilə Azərbaycan arasında ”tranzit blok”a çevirmək niyyətindədir, amma bunu ictimaiyyət qarşısında etiraf etməyə qorxur. Aydın məsələdir ki, bundan sonra Ermənistanın dövlət kimi mövcudluğunun mənası da aradan qalxacaq”.

Göründüyü kimi, Zəngəzur dəhlizinin açılmasına qarşı çıxan məhz Ermənistandır. Sadəcə, İrəvan dəhlizin açılmasının onlara faydalı olacağını başa düşmək istəmir. Ermənistanın rəsmi dairələri bunu açıq bildirməsələr də, hər halda məsələnin həllinə maraq göstərmirlər. Ermənistan ictimaiyyətində isə dəhlizlə bağlı ciddi fikir ayrılıqları var. Ancaq iş burasındadır ki, bu dəhliz açılarsa, daha çox fayda görənlərdən biri Ermənistan olacaq. Dəhlizin mövcud olması Ermənistan büdcəsinə heç bir investisya qoyulmadan, əlavə xərc çəkilmədən böyük vəsaitlərin daxil olmasına gətirib çıxaracaq. Zəngəzur təkcə Azərbaycanla Naxçıvanı birləşdirən nəqliyyat qovşağı olmayacaq. Transmilli layihənin bir qoluna çevriləcək dəhlizin sayəsində onlarca ölkənin iqtisadiyyatı dirçələcək, bir-biri ilə əməkdaşlığın tam yeni və gəlirli perspektivləri ortaya çıxacaq.

**_Sevinc Azadi_**

# Cəbhəçilər Əli Kərimliyə etiraz edir

## AXCP-nin rayon şöbələrinin sıravi üzvləri parlament seçkilərinə qatılacaqlarını bildirdilər

AXCP sədri Əli Kərimli heç bir addımının marağı olmasa, atmaz və ya hər hansı bir açıqlamasından gəlir əldə etməsə, deməz, danışmaz. Bu baxımdan, onun istənilən hərəkəti sünidir, öz şəxsi mənafeyinə hesablanıb. Rüsvayçı hal ondan ibarətdir ki, ətrafına yığdığı trollar da onun kimi düşünür və hərəkətlər edirlər. Partiyadaxili trol şəbəkəsinin fəallarından olan Fuad Qəhrəmanlı, İlham Hüseynli, Ayaz Məhərrəmov, Seymur Həzi və digərləri hər gün çərənləyirlər, sosial şəbəkələrdə pozucu xarakterli məlumatlar paylaşırlar. Deyirlər ki, sentyabrın 1-də keçiriləcək parlament seçkiləri demokratik keçməyəcək, həm də sayıqlayırlar ki, COP29-un Azərbaycanda keçirilməsi əhaliyə narahatlıq gətirəcək, maliyyə itkiləri yaradacaq. Əli Kərimli dünənki paylaşımında bir sıra qanunsuz əməllərinə görə, həbs olunan "Abzas Media" və Toplum tv-nin əməkdaşlarının taleyindən narahat olduğunu yazıb. Söz yox ki, Ə.Kərimlinin və ətrafında olan trolların bu cür mövqeləri onların sifarişli hərəkət etmələrindən irəli gəlir. Birincisi, əminliklə demək olar ki, sentyabrın 1-də keçirilməsi planlaşdırılan parlament seçkiləri yüksək səviyyədə, azad və demokratik şəraitdə keçiriləcək. Çünki dövlətimiz hüquqi, demokratik dövlət quruculuğu prinsiplərinə sadiqdir. Digər tərəfdən seçki prosesinə hər hansı formada kölgə salınması qalib və qüdrətli Azərbaycan dövlətinin adına ləkə ola bilər. Ona görə də, seçkiyə hazırlıq, namizədlərin qeydə alınması, seçicilərin bilgilər əldə etməsi ən yüksək formada təşkil olunub və həyata keçirilib.

### Əli Kərimli və Cəmil Həsənli qara niyyətlərinə nail ola bilməyiblər

Bu günə qədər bir nəfər də olsun namizədliyini irəli sürən şəxs proseslə bağlı narazılığını ifadə etməyib, sadəcə, bəzi məsələ-



lərdə giley-güzar olub ki, bu da təbii haldır, iş olan yerdə incikliyin olması gözlənilləndir. Baxmayaraq ki, Əli Kərimli, Cəmil Həsənli və onun ətrafında olan trollar bütün mümkün vasitələrlə seçkilərə xələl gətirməyə hesablanan çağırışlarla çıxış edib, açıqlamalar verib, paylaşımlar ediblər. Lakin qara niyyətlərinə nail ola bilməyiblər. Hətta öz aralarından olan sıravi cəbhəçilər belə Ə.Kərimlinin "boykot" şousunun iştirakçısı olmaqdan imtina edib. Müqavimətə dözməyən Ə.Kərimli Qənimət Zahidin TV-sinə verdiyi açıqlamasında "boykot" qərarına partiya daxilində birmənalı münasibət göstərilmədiyini söylədi. Bu fikirlə də Ə.Kərimli özü-özünü ifşa etmiş oldu. Təsdiq etdi ki, "boykot" qərarını o özü təkbaşına verib, partiya üzvlərinin, ən azı kollegial orqanların fikrini nəzərə almayıb. Sonradan özünə yaxın Ali Məclisin üzvlərini qonaqlığa dəvət edərək, onların iştirakı ilə seçki məsələsini müzakirə edib, "boykot" qərarı verildiyini bildirdi. Lakin bu, daldan atılan daşa bənzəyir. Çünki qonaqlıq məclisindən çox əvvəl seçkiləri "boykot" qərarı verilmiş və qərar mətbuatda və sosial şəbəkələrdə yayılmışdır. Əgər Ə.Kərimli həqiqətən də partiya üzvlərinə, xüsusilə də, müavinlərinə hörmət edirdisə, "boykot" məsələsi Ali Məclisdə müzakirə edilib, müvafiq qərar çıxarıldıqdan sonra mətbuata yol açmalı idi. Ə.Kərimli məsələni əqidə "dost"ları hesab etdiyi şəxslərlə müzakirəyə çıxarmadan özü təkbaşına qərar verməsi AXCP-də qatı diktatura rejimi qurduğunu və partiyadaşlarına yuxarıdan aşağı baxdığını nümayiş etdirir. Təbii ki, belə özbaşınalıq daxili narazılıq yaratmalı idi və yaradır. Artıq AXCP-nin bir neçə rayon təşkilatının üzvləri "boykot" qərarına qarşı çıxdıqlarını və sentyabrın 1-də keçirilməsi planlaşdırılan parlament seçkilərində səsvermədə iştirak edəcəklərini bəyan ediblər. Bu isə cəsarət nümunəsi ortaya qoyan cəbhəçilərin Əli Kərimliyə vurduqları sərt şillədir. Ona vurulacaq daha bir zərbə keçirilməsi planlaşdırılan partiyanın növbəti qurultayında olacaq.

### AXCP-nin qurultayı Əli Kərimliyə başağrısı gətirəcək

Gözlənilən AXCP-nin qurultayının sakit keçməyəcəyi şübhəsizdi. Birincisi, qurultayda Ə.Kərimlinin özbaşına verdiyi "boykot" qərarına görə izahat verməsi tələb olunacaq. İkincisi, Ali Məclisə seçkilərin necə və hansı prinsiplərlə keçildiyi barədə suallara cavab istəniləcək. Üçüncüsü, 80 yaşlı Nurəddin Məmmədlinin Ali Məclisin sədri təyin edilməsi nəyə əsaslanıb? Dördüncüsü, Şirvan şəhərində evə qanunsuz daxil olaraq oğurluq etməyə cəhd edən Ayaz Məhərrəmovun hələ də AXCP sədr müavinliyindən uzaqlaşdırılmamasının səbəbi nədir? Təbii ki, digər suallar da olacaq. İnandırıcı deyil ki, Nurəddin Məmmədlinin, Ayaz Məhərrəmovun və digərlərinin yanında gözükölgəli olan Ə.Kərimli ona yönələcək sualların bu hissəsinə cavab verə bilsin. Niyə təkbaşına seçkiləri "boykot" qərarını verdin, - sualına Ə.Kərimli cavab verə bilməyib, gözlərini döyə-döyə qalacağı şübhəsizdir. Ona görə də, çətin və ağır durumda olan Ə.Kərimli qurultayın vaxtını uzatmağa çalışır. Hətta bəhanələr də gətirir ki, guya havaların həddindən artıq isti olması səbəbindən rayon təşkilatlarının konfranslarını keçirmək mümkün olmayır. Lakin bu qaçdıtutdu oyunu çox çəkə bilməz. Çünki "Siyasi partiyalar haqqında qanuna" görə qurultayın keçirilməsi bəlli bir vaxt aralığında baş tutmalıdır. Həmin vaxta qədər qurultay baş tutmasa, o zaman Ədliyyə Nazirliyi müvafiq qərarla çıxış edə bilər. Ən azı partiyanın sədrinin və kollegial orqanlara seçilənlərin legitimliyi sual altına düşə bilər ki, bunu da Ə.Kərimli heç arzu etmir. Çünki legitimliyi olmayan təşkilat rəhbərlərinin xarici ağaları qarşısında hörməti olmaz. Ona görə də, Ə.Kərimli ona çətin də olsa, yaxın vaxtlarda qurultaya getməli olacaq. Ancaq qurultaydan necə çıxacağı, onu yalnız hələ də sağlam düşüncəni özlərində saxlayan cəbhəçilərin qərarından sonra bilmək olacaq.

**İLHAM ƏLİYEV**

# "Yer kürəsini xilas etməyin yeganə şansı Bakıda keçirilən COP29-dur"

"COP29-a bizim cəmiyyətimiz tam hazır deyil. Çünki əhali bu haqda kifayət qədər məlumatlandırılmır. Onlar arasında təbliğat aparılmır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib.




O bildirib ki, bu təbliğat, təşviqat işləri son dövrlər, yəni COP29 Azərbaycanda kecirildəndən sonra başlayıb, mətbuatda yazılar gedir: "Ancaq tam ətraflı, geniş şəkildə bu haqda bilgi verilmir. Elə düşünürəm ki, yaxın zamanda bu da qaydasına düşəcək. Bu tədbirin xeyri əslində bizə yox, bütün insanlığa, yer kürəsinə olan xeyirdir. Çünki artıq dünyanın liderləri həyəcan təbili çalırlar. Atmosferdə istixana effekti yaranır. Atmosferə atılan tullantılar yuxarıda havanın zəhərlənməsinə gətirib çıxarır. Son dövrlər hər yerdə müxtəlif xəstəliklərin daha da artması, pis xəstəliklərin çoxalmasına səbəb olur. Belə gedərsə, gələcəkdə ümumiyyətlə, yer kürəsi yaşayış üçün yararlı olmayacaq. Ona görə də hal-hazırda COP29-a hazırlıq çərçivəsində qaz, kömür, neft məhsullarından istifadənin azaldılması əsas məsələ kimi qarşıda durur. Yəni bu 29-cu tədbirin Azərbaycanda keçirilməsinin çox böyük tarixi, siyasi, iqtisadi əhəmiyyəti var".

Onun sözlərinə görə, dünyanın bütün ölkələri iqlim dəyişikliyi haqqında çərçivə sazişinə qol çəkiblər: " Azərbaycanda keçirilən tədbirdə dünyanın 200-ə yaxın ölkəsindən 80 minə yaxın müxtəlif nümayəndələr gələcək. Təbii ki, həmin müddətdə də ölkəmiz haqqında məlumatlanacaqlar. Əsasən də, birgə olaraq qərar qəbul edəcəklər, atmosferə dəyən ziyanın qarşılanması üçün maliyyə mənbələri nəzərdə tutulacaq. Əsasən də, neft-qaz çıxarılan ölkələrdə onun çıxardılmasının azaldılması, çirkablarla dolu gölməçələrin təmizlənməsi, atmosferə zibillərin atılmaması, eyni zamanda daha təhlükəsiz enerji sisteminə keçirilməsi məsələsi artıb gündəmdə olacaq. Buna görə də Azərbaycanda son dövrlər yaşıl enerji, yəni həm günəş, həm də külək enerji panellərinin qurulması üçün ciddi işlər aparılır. Səudiyyə Ərəbistanın şirkətləri ilə Azərbaycan birgə iş aparır. Bu, təkcə Azərbaycanda deyil, bütün dünyada olmalıdır ki, zərərli materialların atmosferə düşməsi və istixana effekti yaratmasına səbəb olmasın. Burada əsas şərt odur ki, istilənmənin 1,5 selsidən yuxarı qalxmaması nəzərdə tutulur, bu sahədə ciddi işlər aparılır. Hər yerdə bu nəzərə alınmır. Ona görə də son dövrlərdə dünyanın bir çox yerlərində böyük dəyişikliklər baş verir. Hətta temperatur 50-54 dərəcəyə çatır. Bu da nə qədər insan ölümünə səbəb olur. Çünki insan normal temperaturda yaşamağı öyrənib. Bu mənada yaşayış yer üzündə çətinləşir. Ona görə də qlobal istiləşmə yer üzündə çox sürətlə gedir. Bu da bütövlükdə yer üzərində yaşamağın mümkün olmayacağına gətirib çıxaracaq.

Alimlər hesab edirlər ki, yer kürəsini xilas etməyin yeganə şansı Bakıda keçirilən COP29-dur. Burada da mütləq çox vacib qərarlar verilməlidir ki, həmin bəladan bəşəriyyət xilas olsun. Çünki əks təqdirdə insanlığın məhvinə gətirib çıxara biləcək iqlim şəraiti yarana bilər".

**Söylü Ağazadə**

# ABŞ Türkiyəni sanksiyalarla hədələyib - SƏBƏB?

ABŞ Ticarət Departamentinin köməkçisi Metyu Akselrod bu yaxınlarda Ankara və İstanbulda Türkiyə rəsmiləri ilə görüşüb. Financial Times (FT) xəbər verir ki, o, bu görüşlərdə xəbərdarlıq edib ki, Türkiyə ABŞ texnologiyalarının Rusiyaya ixracını azaltmasa, "nəticələr"lə üzləşəcək. ABŞ hesab edir ki, Qərb elektronikası Türkiyə vasitəsilə Rusiyaya çatır. Adının çəkilməsini istəməyən məmurun sözlərinə görə, ABŞ-ın mövqeyinin sərtləşməsi artıq Amerika mallarının idxalı ilə bağlı Rusiya xərclərinin artmasına səbəb olub. Bundan əlavə, ABŞ Ticarət Nazirliyi ABŞ şirkətlərindən Türkiyədən 18 şirkətə "həssas komponentlər" satmaq üçün icazə almağı tələb edir və bu siyahı genişləndirilə bilər.



Akselrod deyib ki, Türkiyə Amerika çipləri və digər hissələrin ticarətini məhdudlaşdırmaq üçün daha çox çalışmalıdır. Onun fikrincə, Moskva Amerika avadanlıqlarına çıxış əldə etmək üçün "Türkiyənin ticarət siyasətindən istifadə etməyə çalışır". "Amerika texnologiyalarının Rusiyaya qeyri-qanuni axınının qarşısını almaq üçün Türkiyəyə kömək etmək lazımdır. Biz Türkiyə hakimiyyət orqanlarından və sənayesindən sürətlə irəliləyiş görməliyik, əks halda bizim ixrac nəzarətimizdən yayınanlara sanksiya tətbiq etməkdən başqa çarəmiz qalmayacaq", - Metyu Akselrod qəzetə deyib.

2022-ci ilin fevralında xüsusi əməliyyat başlayandan 2024-cü ilin birinci yarısının sonuna qədər 57 ölkədən 494 şirkət Rusiya ilə əlaqələrə görə ABŞ-ın ikinci dərəcəli sanksiyalarına məruz qalıb. Məhdudiyyətlərə məruz qalan şirkətlərin maksimum sayı Çində qeydə alınıb - 107. BƏƏ ikinci yerdədir - 75. Daha 66 şirkət Türkiyədə qeydiyyatdan keçib.

**V.VƏLİYEV**

# Peşə təhsilli mütəxəssis, yoxsa diplomlu işsiz?



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*



***Peşə təhsili, ixtisaslı kadrların hazırlanmasını və onların rəqabət qabiliyyətinin artırılmasını təmin etmək məqsədi ilə tabeliyindəki peşə təhsili müəssisələrinin fəaliyyətini təşkil edir və əlaqələndirir. Peşə məktəbləri, təhsilini əmək bazarının tələblərinə fasiləsiz uyğunlaşdırmaq məqsədi ilə əlçatan, səriştələrin inkişafı və karyera yönlü davamlı peşə təhsili və təliminin həyata keçirilməsini təşkil edir, peşə təhsili müəssisələrinin maddi-texniki bazasının inkişafı istiqamətində tədbirlər görür.***



Hazırda ölkəmizdəki peşə təhsili mərkəzlərində, peşə liseylərində sənətşünaslıq, mədəniyyət və incəsənət, iqtisadiyyat, xidmət, avtomatika və idarəetmə, kənd təsərrüfatı, balıq və meşə təsərrüfatı, energetika, elektrotexnika, cihazqayırma və optik texnika, radiotexnika, rabitə və informasiya texnologiyaları, metallurgiya, maşınqayırma və metal emalı, aviasiya, kosmik raket, dəniz texnikası və nəqliyyat vasitələri, kimyəvi və biokimyəvi texnologiya, ilkin tələbat və ərzaq mallarının texnologiyası, habelə inşaat və arxitektura ilə bağlı bir çox peşə tədris olunur.

Peşə təhsili müəssisələri öz müəssisələrində peşə hazırlığının səmərəliliyini artırmaq məqsədi ilə işəgötürənlərlə birgə dövlət-biznes əməkdaşlığı çərçivəsində proqramların hazırlanmasını və həyata keçirilməsini təmin edir. Qeyri-formal və informal üsullarla əldə edilmiş səriştələrin tanınması ilə bağlı metodikaları hazırlayır və tətbiqini təmin edən bu müəssisələr peşə təhsili sahəsində beynəlxalq proqram və layihələrin əlaqələndirilməsini təşkil edir. Peşə məktəbini bitirən tələbələri, adətən, müəssisə ilə əməkdaşlıq edən işəgötürənlər işlə təmin edir.

Qeyd edək ki, Azərbaycan Respublikasının 2022?2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasına uyğun olaraq yeni peşə təhsil müəssisələrinin qurulması prosesi cari tədris ilində də davam edəcək. Həmçinin, Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən 2026-cı ilə qədər Qarabağda da 8 yeni peşə təhsil müəssisəsinin tikilib istifadəyə verilməsi planlaşdırılır.



Peşə təhsili, ixtisaslı kadrların hazırlanmasını və onların rəqabət qabiliyyətinin artırılmasını təmin etmək məqsədi ilə tabeliyindəki peşə təhsili müəssisələrinin fəaliyyətini təşkil edir və əlaqələndirir. Peşə məktəbləri, təhsilini əmək bazarının tələblərinə fasiləsiz uyğunlaşdırmaq məqsədi ilə əlçatan, səriştələrin inkişafı və karyera yönlü davamlı peşə təhsili və təliminin həyata keçirilməsini təşkil edir, peşə təhsili müəssisələrinin maddi-texniki bazasının inkişafı istiqamətində tədbirlər görür.

Peşə təhsili müəssisələri öz müəssisələrində peşə hazırlığının səmərəliliyini artırmaq məqsədi ilə işəgötürənlərlə birgə dövlət-biznes əməkdaşlığı çərçivəsində proqramların hazırlanmasını və həyata keçirilməsini təmin edir. Qeyri-formal və informal üsullarla əldə edilmiş səriştələrin tanınması ilə bağlı metodikaları hazırlayır və tətbiqini təmin edən bu müəssisələr peşə təhsili sahəsində beynəlxalq proqram və layihələrin əlaqələndirilməsini təşkil edir. Peşə məktəbini bitirən tələbələri, adətən, müəssisə ilə əməkdaşlıq edən işəgötürənlər işlə təmin edir.

Qeyd edək ki, Peşə Məktəbi, Peşə Liseyi, Peşə Təhsil Mərkəzləri bir-birindən fərqlidir. Dövlət və özəl peşə məktəbləri, habelə tələbələrinə təqaüd verən peşə məktəbləri var. Tələbələrdən aylıq, illik ödəniş alaraq onlara peşə təhsili öyrədən peşə məktəbləri var. Peşə məktəblərinə 11 illik və 9 illik bazadan qəbul olmaq olur. Peşə məktəblərində 11 illik bazadan 1 il (10ay), 9 illik bazadan 3 il təhsil alırsınız. Peşə məktəbləri də tədris ilinin sonunda diploma yanaşı diplom əlavəsi (UMOG balı) verir. Peşə məktəbləri artıq bir növ kollec sayılır. Peşə məktəblərinin UMOG BALI yüksək olanlar kolleclərə müraciət edə bilərlər, bir halda ki 9 illik bazadan 3 il təhsil almış olsun. Peşə məktəblərini yüksək ixtisaslar üzrə bitirənlər də subbakalavr statusu alır ki, bu da ali məktəbə imtahansız qəbul şansı verir.

Peşə məktəblərinin bəzilərini bitirənlərin attestatında möhür yerində dövlət əsaslı yazılır ki, bu da bəzi hallarda ikinci təhsili ödənişli almağa səbəb olur. Bütün bunlara baxmayaraq peşə təhsili alanlar 1 dəfə dövlət əsaslı (ödənişsiz, pulsuz) təhsil almaq hüququna sahibdir. Onlar 1 dəfə ödənişsiz kollec və 1 dəfə ödənişsiz ali məktəbdə təhsil ala bilər. Peşə məktəblərini bitirənlər çox vaxt peşə məktəblərində hansısa ixtisası və ya peşəni təlim edən şirkət ya sektorlar tərəfindən birbaşa işə dəvət alırlar.

Peşə məktəbinə yaşadığın zona üzrə qəbul olunmasan, yəni yer olmasa, digər zonaların peşə məktəblərinə də müraciət edərək asanlıqla qəbul ola bilərsiniz. Bunun üçün həmin bölgədə müvəqqəti yaşadığınıza dair yaşayış yerindən müvəqqəti qeydiyyata alındığınız haqqında arayış təqdim etməlisiniz. Peşə məktəbində oxuyarkən oxuduğunuz ixtisasdan əlavə həmin məktəbin tərkibindəki digər kurslardan da yararlanmaq şansınız var.

Peşə məktəbləri də digər ali təhsil ocaqları kimi tələbələrinə təqaüd təyin edir. Peşə məktəbində təhsil aldığınız ixtisasdan asılı olaraq çox vaxt ixtisas təlimləri elə məktəbin özündə olur. Peşə məktəbləri də digər ali və ya orta ixtisas təhsili məktəbləri kimi ilin sonunda tələbələri arayış (göndərişlə) təlimə (praktika) göndərir. Bütün ahllarda, peşə məktəbində təhsil alan heç bir halda uduzmur, əksinə, əmək bazarına daha sürətli giriş edir, daha yaxşı iş imkanları qazanır.

***Lalə Mehralı***



SON SƏHİFƏ
SƏS
8 avqust
2024-cü il

# Tərlan Əhmədov Konfrans Liqası barədə NƏLƏRİ DANIŞDI?

## Keçmiş futbolçu və baş məşqçi Tərlan Əhmədovun SİA-ya müsahibəsini təqdim edirik:



*- Sizcə, Konfrans Liqasının Azərbaycan klubları üçün hansı yararı var?*

- Konfrans Liqası əvvəl də olub və İntertoto adlanıb. Lakin özünü doğrultmayıb. Çünki klublar bura daxil olmaq üçün pul ödəməli idi. O dövrün klubları maliyyə baxımından güclü olmadığından bu alınmayıb. İndi isə UEFA, Kofrans Liqasını maddi olaraq dəstəkləyir. Beləliklə aşağı reytinqli ölkələrin futbolu inkişaf edir. UEFA Konfrans Liqasına vəsiqə qazanan klublara da maddi vəsait ayırır. Klubların futbol akademiyaları da bundan yararlanır. Beləliklə klublar maddi gəlir əldə edir, beynəlxalq təcrübə qazanır və Avroliqa üçün təcrübə əldə edir.

Ölkəmiz baxımından da bunu görmək olar. Xaricə maksimum dərəcədə açılmaq çox önəmlidir. ”Qarabağ” futbol klubu 10 ilə yaxındır ki ölkə çempionu olur və Avropada ölkəmizi təmsil edir. Əslində 2012-ci ildə ”Neftçi” futbol klubu Avropaya cığırı açdı. ”Qarabağ” bunu uğurlu şəkildə davam etdirdi, daha sonra isə ”Qəbələ” futbol klubu buna qoşuldu. Bu gün isə Konfrans Liqasına düşmək daha rahatdır. Klubların çoxu bizlə eyni səviyyədədir. Konfrans Liqası bizim klubların və futbolçuların özünü görsətməsi üçün böyük şans və məktəbdir.

*- Azərbaycan liqasının fiziki hazırlığı Konfrans Liqası standartlarına uyğundurmu?*

- Azərbaycan komandalarında orta hesabla 7-8 legioner oynayır. Kifayət qədər səviyyəli yerli oyunçularımız da var. Onlar balansı təmin edir. Beləliklə bizim klubların fiziki səviyyəsi Konfrans Liqasında iştirak edən komandalardan geri qalmır. Funksional baxımdan da daha yaxşı vəziyyətdəyik. Konfrans Liqasının qruplarına düşə biləcək 2-3 Azərbaycan komandası var. Amma motivasiya məsələsi də bir o qədər önəmlidir.

*- Növbəti illərdə Kəpəzin də Azərbaycanı Konfrans liqasında təmsil etmə ehtimalı varmı?*

- ”Kəpəz” futbol klubu ilə yollarımız ayrılıb. Bu barədə dəqiq nəsə deyə bilmərəm. Amma ümumilikdə legioner futbolçu alıb ancaq onları oynatmaqla nəyəsə nail olmaq mümkün deyil. Azərbaycan futbolunun özəyi ”Neftçi” və ”Kəpəz” olub. Daha sonra isə biz Azərbaycanlı futbolçuların yetişdiyi komandaları məhv etdik və etməkdəyik. ”Gəncə” məktəbi artıq yox səviyyəsindədir. ”Neftçi” futbol akademiyaları barədə də eyni şeyi demək olar. Onlar bir xeyli zəifləyiblər. Unutmaq lazım deyil ki, Mahmud Qurbanov kimi istedadlar Gəncədən çıxıb. Mahir Həsənovu da mən özüm Gəncə futbolundan çıxardım. ”Kəpəz” hələ ki Konfrans Liqası səviyyəsində deyil. ”Gəncə” futboluna stabil maddi dəstək lazımdır. Ümumi legioner limiti isə sabit qalmalıdır. Maddi texniki baza yüksəldilsə ”Kəpəz” 1950-1960-cı illərdəki gücünə qayıda bilər. Milliləşdirilən legionerlərin millimizi irəli apara bilmədiyi kimi legionerlər, Azərbaycan komandalarına da fayda verməyəcək.

*- Sizcə, "Qarabağ" Konfrans Liqasını qazana bilər?*

- ”Qarabağ” Konfrans Liqasını qazana biləcək gücdədir. Biz də bunu istəyərik. Amma ”Qarabağ” Çempionlar Liqası və Avroliqanı hədəfləyir. Amma ”Qarabağ” inkişaf etdiyi qədər digər komandalar da inkişaf edir. Ümid edək ki, ”Qarabağ” Çempionlar Liqasının qrup mərhələlərinə çatar.

*- Belə bir fikir var ki, Azərbaycanda bütün futbola maraq və maddi dəstək "Qarabağ"ın üzərinə toplanıb. Sizcə, bu doğrudur?*

- Xeyr, mən qətiyyən bu fikirdə deyiləm. ”Qarabağ” son dövrlərin ən yaxşısı ola bilər lakin onun da zəif tərəfləri var. Akademiya baxımından ”Qarabağ” güclü deyil. ”Neftçi” və ”Qəbələ” bu barədə daha yaxşı nəticələr verib. Onların yetişdirib Azərbaycan futboluna qazandırdığı idmançılar daha çoxdur. Bu baxımdan ”Qarabağ”a dəstək verilir. Ali Baş Komandan da idmanı diqqətdə saxlayır və dövlət səviyyəsində futbola böyük vəsaitlər ayrılır. Liqada rəqabət təşviq edilir. Bu idmana edilən dəstəyi görsədir. Ümumilikdə isə ən böyük maraq hazırda ”Qarabağ”adır. Necə ki, bir zamanlar da ”Neftçi”yə maraq var idi. Əsas məsələ səbrli olub gözləməkdir. Ayrıca mən dövlətimizi təbrik edirəm. Bizim PARİS 2024 Olimpiyadalarından artıq 2 qızıl medalımız var. Ümid edirəm ki, onlar daha da çoxalar. Bizi təmsil edən bütün idmançılarımıza uğurlar arzu edirəm.

***Zərdüşt Quluzadə***


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Bu futbolçu ”Barselona” üçün tibbi müayinədən keçdi



**“Leyptsiq”in hücumçusu Dani Olmonun ”Barselona”ya keçidi tamamlanmaq üzrədir. QOL.az xəbər verir ki, bu barədə tanınmış insayder Fabritsio Romano məlumat yayıb. İspaniya millisinin üzvü artıq Kataloniya klubu üçün tibbi müayindən keçib. O, yeni klubu ilə 6 illik müqavilə bağlayacaq.**

Qeyd edək ki, ”Leyptsiq” Dani Olmonu 2020-ci ilin yanvar ayında Zaqreb ”Dinamo”sundan transfer edib. İspaniya millisi ilə Avropa çempionu olan futbolçu turnirdə meydana çıxdığı 6 matçda 3 qol vurub və 2 məhsuldar ötürmə edib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700